www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 iyun 2024-cü il Cümə № 99 (8472) Qiymətı 60 qəpik

**Xəbər**

## İşdən çıxarılan icra başçısı haqda iddialar

yazısı səh.10-da

**Gündəm**

### YAP ““vitrini” dəyişir” iddiası




Hakim partiya deputatlığa namizədlər siyahısına əməlli-başlı “əl gəzdirəcək”

yazısı səh.3-də

### Türk dövlətlərinin vahid valyutası yaradılır?

yazısı səh.4-də

### ABŞ Konqres Kitabxanasında “Sarı gəlin” yalanı

yazısı səh.6-da

### Azərbaycanda olan miqrantlarla bağlı sərəncam

yazısı səh.7-də

### Türkiyəni “parçalamaq” istəyənlər yenə ortaya çıxdı

yazısı səh.8-də

### Gürcüstanın ərazi problemi- Qarabağ variantı, yoxsa?

yazısı səh.9-da

### Kasıblar taksidən düşdü, indi nə olacaq?

yazısı səh.13-də

### Zəngəzur üçün son bir ay

yazısı səh.9-da

### Büdcəyə dəbdəbəli binalar yükü

yazısı səh.12-də

### Tomas de Vaalın dəyişən “val”ı - səbəb nə...

yazısı səh.4-də

### Xəzərdə süni torpaq sahələrinin yaradılması haqda qanun təsdiqləndi

yazısı səh.12-də

### Boşananda bu qədər rüsum ödəyəcəksiniz

yazısı səh.12-də

# SÜLH SAZİŞİ - BİR ADDIM İRƏLİ, İKİ ADDIM GERİ...

Ermənistan rəhbərliyi hələlik öz yolunu və seçimini düzgün müəyyənləşdirə bilməyib; Paşinyan hakimiyyətinin sülhə zərbə vuran açıqlamaları təhlükəli perspektiv vəd edir

yazısı səh.5-də



# Avropada seçkilər: anti-Azərbaycan qüvvələr güclənə bilər

Ekspertlər deyir ki, Avropa Parlamentinin yeni tərkibindən də ölkəmizə münasibətdə müsbət dəyişiklikləri gözləməyə dəyməz

yazısı səh.6-da



### Vasif Talıbovun postu uğrunda mübarizə

yazısı səh.11-də




### Akademikin direktorluqdan müəmmalı istefası

yazısı səh.3-də




### Sabiq baş nazirdən DTK-nın keçmiş sədri haqda şok açıqlamalar

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

# Ünvanlı sosial yardım alanların sayı azala bilər



**Ünvanlı sosial yardım proqramına müraciət prosedurunun daha da təkmilləşdirilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Ünvanlı yardım" elektron sistemini yenidən qurub.**

Artıq ünvanlı yardım üçün müraciət edən şəxslərdən bir sıra məlumatlar tələb olunmayacaq.

Bunu necə qiymətləndirmək olar? Ünvanlı sosial yardım alanların sayı artacaq, yoxsa azalacaq?

**İqtisadçı ekspert Natiq Cəfərli** deyib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin atdığı addım başadüşüləndir: "Ünvanlı sosial yardımla bağlı müxtəlif problemlər, iradlar, narazılıqlar var idi. İndi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu işin elektronlaşması və insan amilinin təsiri olmadan həyata keçirilməsinə çalışır. Bu addım da analaşılan və doğrudur. Lakin yenə də son qərarı hansısa məmur verəcəksə, prosedurun elektronlaşması elə də effekt verməyəcək".

**N.Cəfərli söyləyib ki, ictimai nəzarət mexanizmi gücləndirilməlidir:** "İstənilən halda sosial məsələ çox həssas olduğuna görə jurnalistlərdən, QHT-lərdən ibarət ictimai nəzarət şurası yaradılmalıdır. Bələliklə də, bu istiqamətdəki şikayətlərə operativ reaksiya vermək mümkün olacaq. Çünki şikayətlər həddən artıq çoxdur. Bəzən haqlı, bəzən də haqsız şikayətlər olur. İstənilən halda şikayətlərin çoxluğu bu istiqamətdə narazılığa gətirib çıxarır. Şikayətlərin aradan qaldırılması üçün ictimai nəzarət mexanizmi genişləndirilməlidir. Daha şəffaf nəzarət mexanizminin yaradılmasına ehtiyac var".



## ÜTT-nin baş direktoru Prezidentin qəbulunda

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Ümumdünya Ticarət Təşkilatının baş direktoru Nqozi Okonyo-İvealanı qəbul edib. Görüşdə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxilolma prosesi ilə bağlı fikir mübadiləsi aparılıb.**

Qonaq Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətləri vurğulayıb.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Ümumdünya Ticarət Təşkilatının baş direktoru bu tədbir çərçivəsində Ticarət və Sərmayə Gününün təşkil edilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlıq imkanları müzakirə olunub.



## Baş Prokurorluqda yeni təyinatlar

**Baş Prokurorluqda təyinatlar olub. Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən Ədilə Əfəndiyeva, Nigar Hüseynquliyeva və Gültac İsgəndərli Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorları təyin olunub.**

Bildirilib ki, qeyd olunan şəxslərin prokurorluq orqanlarında səmərəli fəaliyyəti, peşəkarlığı, işgüzarlığı, bilik və bacarığı nəzərə alınmaqla onlar vəzifədə irəli çəkilib. Qeyd olunub ki, bu təyinata qədər Ədilə Əfəndiyeva Bakı Şəhər Prokurorluğunda şöbə prokuroru, Nigar Hüseynquliyeva Şirvan şəhər prokurorunun köməkçisi, Gültac İsgəndərli isə Balakən Rayon Prokurorluğunun böyük müstəntiqi vəzifəsində çalışıb. Prokurorluq orqanlarında islahatlar davam etdirilərək gender bərabərliyi nəzərə alınmaqla gənc, peşəkar və savadlı kadrların komplektləşdirilməsi bundan sonra da həyata keçiriləcək.



## Yaşı 65-dən yuxarı olan müəllimlərə xəbərdarlıq

**"Çalışma yaş həddi əmək müqaviləsinə xitam verilməsi üçün əsas verir. Lakin onların əksəriyyəti peşəkar müəllimlərdir".**

Bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli müəllimlərin sertifikasiyası ilə bağlı məlumatlandırıcı sessiyada deyib.

O bildirib ki, bir çox hallarda yaşı 65-dən yuxarı olan müəllimlər əmək müqaviləsinin uzadılması üçün müraciət edirlər: "65 yaşdan yuxarı olan müəllimlər üçün sertifikasiya könüllü olduğu üçün qeyd edim ki, onların əgər sertifikasiyada iştirak etməyəcəksə, əmək müqaviləsinin uzadılması tələbinə baxılmayacaq".

## "Abzas Media" rəhbərləri girov müqabilində azad edilmədilər

**Bakının Xətai Rayon Məhkəməsi "Abzas Media" onlayn nəşrinin direktoru və baş redaktoru Ülvi Həsənli və Sevinc Vaqifqızının pul girovu müqabilində azadlığa buraxılması ilə bağlı müdafiə tərəfinin vəsatətlərini təmin etməyib.**

Vəkil Elçin Sadıqov "Turan"a bildirib ki, bu qərarlardan apelyasiya şikayəti veriləcək.

Vəkil qeyd edib ki, iyunun 20-də onların həbs müddəti başa çatır. Lakin iqtisadçı Fərid Mehralızadə "Abzas Media" işi üzrə cəlb edildikdən və 3 ay 20 gün müddətinə həbs edildikdən sonra Həsənli və Vaqifqızının həbs müddəti də sentyabrın 20-dək uzadıla bilər.

"Abzas Media" ilə əlaqəli altı jurnalist və media işçisi "qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xarici valyuta qaçaqmalçılığı" ittihamı ilə həbs edilib. Apreldə Meclis.info saytının rəhbəri İmran Əliyev və Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli bu iş üzrə həbs ediliblər. Sonradan onların işi ayrıca icraata götürülüb.

## Kürdə batanlar axtarılır



**İyunun 2-də Tovuz rayonunun Hunanlar kəndindəki körpüdən Kür çayına düşən 3 nəfərin axtarışları davam etdirilir.**

Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, çayda batdığı ehtimal olunan şəxslər FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti və Xüsusi Riskli Xilasetmə Xidmətinin qüvvələri tərəfindən axtarılır.

Bildirilir ki, Tovuz sakinləri 1992-ci il təvəllüdlü Cəfərov Vüqar Rəsul oğlu,1989-cu il təvəllüdlü Quliyev Tural Hüseyn oğlu və 1988-ci il təvəllüdlü Sadıqov Elxan Sakit oğlunun axtarışları batdıqları ehtimal olunan istiqamətlər üzrə intensiv şəkildə davam etdirilir.

Qeyd edək ki, hadisə nəticəsində maşında 4 nəfər olub. Onlardan biri - 1992-ci il təvəllüdlü Turqut İbrahimov sudan çıxaraq xilas olub.

## Paşinyan Bakıya gələcək?

**Ermənistan baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryan Nikol Paşinyanın Bakıda keçiriləcək COP29-da iştirak edib-etməyəcəyinə aydınlıq gətirib.**

Bu barədə o, jurnalistlərin sorğusuna cavab olaraq danışıb.

O, Ermənistanın baş nazirinin COP29-da iştirakı ilə bağlı məlumatları təkzib edib. Sözçü qeyd edib ki, Paşinyanın iş proqramında belə bir səfər nəzərdə tutulmayıb.

Xatırladaq ki, bir müddət əvvəl Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzi (STM) İdarə Heyətinin sədri Zahid Oruc Modern.az-a müsahibəsində Paşinyanı COP29-da görmək istədiyini bildirib.

Onu da qeyd edək ki, ötən ilin sonunda Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyib.

## Səfir geri çağırıldı - yeni təyinat

**Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Prezidentin digər sərəncamı ilə Rəşad Fail oğlu İsmayılov Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.



## Dərslərin bitmə tarixi dəyişəcək?

**"Avropa təhsil sisteminə inteqrasiya əsas gətirilərək, 2004-cü ildən Nazirlər Kabinetinin müvafiq qərarı ilə "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə edilən dəyişikliyə əsasən, dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır. Dərslərin 14 iyuna qədər davam etməsi həm müəllimləri, həm də şagirdləri yorur. Yay aylarında şagirdlərin dərs oxumağa bir o qədər də həvəsi olmur. İyunun ortalarına kimi uzadılan dərslərin heç bir mənası yoxdur. Çünki şagirdlər dərsdə həvəssiz şəkildə, candərdi otururlar. Bunun isə nə müəllimə, nə də şagirdə faydası ola bilməz".**

Bunu təhsil eksperti Elşən Qafarov bildirib. O vurğulayıb ki, iyunda övladını məktəbə aparıb-gətirmək valideynlər üçün də olduqca çətindir: "Tədris sentyabrın 1-də başlasa, daha yaxşıdır. Biz də artıq dünya təcrübəsindəki kimi 36 həftəlik tədrisə keçməliyik. Bu, təhsilin keyfiyyətinə müsbət mənada təsir edəcək. Dünyanın müxtəlif ölkələrində tədris ilinin başlanılması fərqli tarixlərdə olsa da, bir çoxunda sentyabrın 1-də başlayır. Azərbaycanda da bu sistemin tətbiqinə başlamaq lazımdır. Bu, təhsilin keyfiyyətinə müsbət mənada təsir edəcək".

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

# "Mehdiyev siyasətə qayıdır, YAP "vitrini" dəyişir" iddiası

## Hakim partiya deputatlığa namizədlər siyahısına əməlli-başlı "əl gəzdirəcək" və bir neçə populyar YAP-çı "oyundankənar vəziyyət"də qala bilər; **AMİP sədri:** "Bu dəyişiklikləri istisna etmirəm və..."

**Bu gün - iyunun 7-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçiriləcək. Gözlənilir ki, parlament maksimum 3 və ya 4 növbədənkənar sessiya keçirəcək. Belə ehtimal var ki, sonuncu iclasda isə özünün buraxıldığını elan edəcək.**

Milli Məclis son olaraq 2009-cu ilin 9 dekabr iclasında Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı etdiyi müraciətinə əsasən belə bir qərar vermişdi. Gözlənilir ki, bu dəfə də YAP çoxluğu belə bir müraciət hazırlayacaq və növbədənkənar seçkilər üçün Prezidentə müraciət edəcək. Əsas səbəb kimi isə noyabrda keçiriləcək COP29-a hazırlıq göstərilə bilər. Ehtimal edilir ki, seçkilər ya avqustun son həftəsi və ya sentyabrın 1-nə təyin edilə bilər.

Növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ilə bağlı xəbərlərin intensiv xarakter alması isə ölkənin siyasi həyatında canlanma yaradıb. "Yeni Sabah"ın əldə etdiyi məlumata görə, seçkilərin yaxınlaşması təkcə müxalifət deyil, həm də hakimiyyət daxilində canlanma yaradıb. Belə ki, hakimiyyət komandasında təmsil olunan digər məmurlar da özlərinə yaxın olan bir neçə siyasətçi, iqtisadçı və hüquqşünasın parlamentə gedən yolunu açmağa çalışır. İddia olunur ki, nə qədər qəribə görünsə də, uzun müddətdir siyasətdən kənarda dayanan sabiq PA rəhbəri Ramiz Mehdiyevin birbaşa deyil, dolayı yollarla bəzi adamlarının mandat alması istəyindədir. O da iddia olunur ki, 200-dən artıq YAP üzvünün deputat olmaq iddiası ilə partiya rəhbərliyinə müraciət edilib. Onların arasında hazırda Milli Məclisdə təmsil olunan şəxslərlə yanaşı, çoxdan "arxivə" göndərilmiş köhnə fiqurlar da var. Vaxtilə etimad göstərilərək, icra başçısı təyin olunan Əhəd Abıyev və onun kimi daha bir neçə nəfərin mandat almaq uğrunda qeyri-rəsmi mübarizəyə başladıqları qeyd olunur. YAP funksionerlərindən biri isə sayta deyib ki, hakim partiya bu dəfə özünün namizədlər siyahısına əməlli-başlı "əl gəzdirəcək". Onun sözlərinə görə, təkcə partiyada deyil, həm də cəmiyyətdə kifayət qədər populyar olan bir neçə YAP-çı "oyundankənar vəziyyət"də qala bilər.

**AMİP sədri Arzuxan Əlizadənin "Yeni Müsavat"a bildirdiyinə görə, partiya fevraldan parlament seçkilərinə hazırlığa başlayıb:** "Siyasi Şuranın iclası keçirilib və seçkidə iştirak qərarı verilib. Rayon təşkilatlarına da müvafiq tapşırıqlar var və seçkili qurumların üzvləri ilə namizədlər məsələsi müzakirə edilib. Eyni zamanda bu il bələdiyyə seçkiləridir və ona da hazırlıq gedir. Ona görə partiya daxilində hazırlıq yüksək səviyyədə aparılır. Amma seçki prosesinin necə keçiriləcəyinin təsirlərini nəticələrdə görəcəyik". **Partiya sədrinin fikrincə, İkinci Qarabağ müharibəsində əldə etdiyimiz uğurdan sonra fərqli parlament olmalıdır:** "2019-cu ildə parlament özünü buraxdı və adekat olmadığı elan edildi. Amma 125 nəfərdən 80-dən çoxu yenidən təkrar mandat sahibi oldu. Lakin Qarabağ qələbəsi, yeni siyasi mühitin formalaşması, xarici təhdidlərlə mübarizdə indiki parlament də yenilənməlidir, orada ciddi şəkildə siyasi spektr təmsil olunmalıdır. Azərbaycanın böyük həfədləri var, tək Zəngəzur dəhlizi və nəqliyyat kommunikasiyaları deyil, qərbi azərbaycanlıların qayıdışı proqramı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin bir parçasına çevrilmə, belə bir güclü ölkə olması parlamentini də ona adekvat görünməyə səsləyir. Parlament gündəmin, hadisələrin arxasınca getməməlidir, yeni hədəflər müəyyənləşdirməlidir, indiki parlament isə dediklərimizə uyğun deyil. Dediyimiz siyasi konfiqurasiyaya uyğun Milli Məclis olmalıdır. Ümidvarıq ki, bu məsələlər hakimiyyət tərəfindən nəzərə alınacaq".

**A.Əlizadə hakim partiyanın "vitrin"ində dəyişiklikləri istisna etmir:** "YAP hakim partiyadır. Hakim partiya kimi proseslərə təsir imkanı böyükdür. Əfsus ki, az əvvəl sadaladığım məsələlər onların bir çoxuna aiddir. Bir neçə nəfər istisna, əksəriyyət parlamentdə aktivlik göstərmir. Bu baxımdan hakim partiyanın da parlament üzvlərinin dəyişməsinə ehtiyac ola bilər, amma yenə də bu, onların daxili işidir və qarışmaq siyasi etiket nöqteyi-nəzərdən doğru olmazdı. Bütövlükdə ölkə gündəminə uyğun parlament olmalıdır. Bu gün 9 siyasi partiyanın parlamentdə deputatı var, onlar da sədrlərlə təmsil olunur ki, bu da kənardan yaxşı görünmür. Ümumiyyətlə, tək parlament deyil, bütün sahələrdə, idarəetmə dəyişikliklər labüddür. Məsələn, ordumuz Türkiyə modelinə keçib və onun kiçik formasını qurur, eləcə də qardaş ölənin idarəetməsinə keçid edə bilərik, bələdiyyələrin statusunu artırmaq yaxşı olardı, icra strukturları ləğv edilməlidir, Prezidentin yerlərdə təyin olunmuş səlahiyyətli şəxsləri tərəfindən bu işlər görülməli, yerli idarəetmə isə bələdiyyələrə verilməlidir. Əslində bunun üçün referendum olmalı idi, di gəl, bu məsələ gündəmdə olsa da, nə vaxt keçiriləcəyi dəqiqləşməyib. Ona görə də ümumilikdə bir çox sektorlarda islahatlara ehtiyac var və 2020-ci ildən sonra xalqımız daha yaxşı yaşamağa layiqdir".

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli yeni parlament seçkilərində iştirak edəcəklərini qeyd etdi**: "Bilirsiniz ki, Milli Məclisdə iqtidar partiyasından sonra təmsilçilik sayı baxımından ikinci partiya bizik. Şübhəsiz ki, hədəfimiz Milli Məclisdə daha böyük sayda təmsil olunmaqdır. Artıq seçki hazırlıqlarına başlamışıq, rayon təşkilatlarımızla bu məsələlər müzakirə edilib və indi qərarın verilməsini gözləyirik. Hər halda, seçki COP29 tədbirlərinə qədər keçiriləcək. Bütün məlumatlar, ictimai rəyə ötürülən açıqlamalar, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun sözləri belə düşünməyə əsas verir ki, noyabra qədər seçki olmalıdır. Amma parlamentin növbədənkənar seçkiyə getməsinin təqdimatının necə olacağını deyə bilmərik. Hər bir halda, yeni seçkilərlə parlamentə yeni nəfəs gələcəyini gözləyirik".

**S.Əsədli hesab edir ki, parlamentdə fəal, seçicilərlə davamlı görüşən, ölkənin ictimai-siyasi həyatında aktiv olan, həmişə danışan deputatlar olmalıdır:** "Milli Məclis danışmaq tribunasıdır. Ona görə orada 25-30 deputat yox, 125 deputatın hamısı aktiv adamlardan ibarət olmalıdır. Elə deputat var ki, ildə üç dəfə nəsə deyir, eləsi var ki, səsini eşidən olmayıb. O baxımdan parlament yenilənməlidir. Əlbəttə ki, bu yenilənmə Yeni Azərbaycan Partiyasının namizədlər siyahısında da ola bilər. Buna təbii ki, partiya qərar verəcək, amma fikrimcə, hakim partiyanın siyahısından bir neçə çağırış deputat olmuş, yaxud yaş faktoru nəzərə alınacaq şəxslər təkrar namizəd olmaya bilərlər. Mən ad çəkmək istəmirəm, amma bütövlükdə yenilənmə görəcəyimiz istisna deyil. Əsas hədəf budur ki, xalqın istəkləri, problemləri parlament tribunasından daha çox dilə gətirilsin, ölkənin milli məsələləri ilə bağlı müzakirələr daha aktiv şəkildə aparılsın".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**





İsa Həbibbəyli


Muxtar İmanov

# Akademikin direktorluqdan müəmmalı istefası

## Folklor İnstitutunun direktoru AMEA prezidenti İsa Həbibbəylinin təkidindən sonra getməyə məcbur olub?

**Akademik Muxtar İmanov Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun direktoru vəzifəsindən azad olunub. Bu barədə İqtisadiyyat.az-a akademik özü məlumat verib.**

O bildirib ki, indiyədək direktor vəzifəsi ilə paralel olaraq Azərbaycan Dillər Universitetində (ADU) kafedra müdiri və müəllim işləyib. Amma səhhətində yaranan problemlərlə əlaqədar olaraq hər üç işin öhdəsindən eyni anda gəlməklə bağlı müəyyən çətinliklərlə üzləşib.

Buna görə də direktor vəzifəsindən öz istəyi ilə çıxdığını söyləyib. Akademik deyib ki, əvvəllər ADU-da kafedra müdiri vəzifəsini ictimai əsaslarla icra edib. Amma instituta rəhbərlikdən çıxdıqdan sonra universitetin kafedrasında tamştat müdir vəzifəsini icra etməyə başlayıb. Eyni zamanda bu ali təhsil müəssisəsində müəllim kimi də fəaliyyətini davam etdirdiyini vurğulayıb.

O, vəzifəsindən çıxması ilə bağlı AMEA prezidenti İsa Həbibbəyli ilə müzakirələr aparan zaman Folklor İnstitutunun direktoru vəzifəsinə namizəd də təqdim edib. Akademik həmin namizədin adını açıqlamasa da, direktor vəzifəsinə təyin olunacağını ehtimal edir.

Hazırda isə Folklor İnstitutunun direktoru vəzifəsinin icrası xanım müavin Afaq Ramazanovaya həvalə olunub.

Xatırladaq ki, 69 yaşlı M.İmanov 2013-cü ildən Folklor İnstitutunun direktoru vəzifəsində çalışırdı.

Qeyd edək ki, M.İmanovun vəzifədən istefa verməsi ilə bağlı ilk məlumatı Yenisabah.az saytı yayıb. Sayt Folklor İnstitutunun məsul əməkdaşlarından birinə istinadən xəbər verib ki, Muxtar İmanovun istefası AMEA-nın prezidenti İsa Həbibbəylinin təkidi nəticəsində baş tutub.

Mənbə deyib ki, Muxtar İmanovla İsa Həbibbəyli uzun illər yaxın dost olublar, amma son vaxtlar dostların arasında "soyuq küləklər" əsməyə başlayıb. Bundan sonra AMEA prezidenti institut direktorundan könüllü şəkildə vəzifədən getməyi tələb edib. Muxtar İmanov bir müddət müqavimət göstərsə də, sonda AMEA prezidentinin təzyiqlərinə davam gətirə bilməyib.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024



# Türk dövlətlərinin vahid valyutası yaradılır?

## Ekspert: "Bizim də aramızda o dərəcədə bir iqtisadi birlik yoxdur ki..."

**Son zamanlar türk dövlətləri arasında birgə əməkdaşlığın və fəaliyyətin gücləndirilməsi ilə əlaqədar bir sıra təkliflər gündəmə gəlir. Bunlardan biri də türkdilli dövlətlərin birgə valyutasının yaradılması ilə bağlıdır. Daha əvvəl türkdilli dövlətlərin vahid valyutasının yaradılması məsələsi gündəmə gəlib. Amma bu o qədər asan məsələ deyil. Dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi vaid valyutanın yaradılaraq güclənməsinə səbəb ola bilər. Bu baxımdan türk dövlətlərinin valyutası yaxın zamanda yaradıla bilər?**

Mövzu ilə bağlı Sonxeber.az-a danışan **bank məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov** indiki məqamda, o cümlədən yaxın 10 illikdə belə bir perspektivin baş tutacağını düşünmür: "Yeni burada tam olaraq iqtisadi birlik olmalıdır. Buna nümunə olaraq Avropa İttifaqını nümunə göstərmək olar. Avropa İttifaqı valyuta olaraq avronu yaratdı. Amma onlar bu prosesə onilliklər ərzində gəlib çıxdılar. Əvvəlcə iqtisadi və gömrük birliyi baş verdi. Yalnız 2000-ci ilin əvvəlində avro meydana gəldi. Bunun hazırlanması üçün onların 30 ildən çox vaxtları getdi. Amma bu da tam sabit olmadı. Məsələn, Britaniya Avropa İttifaqından çıxdı. Bəzi ölkələr var ki, onlar heç avroya keçmədi. Burada iqtisadi bir zəmin olmalıdır. Türkdilli dövlətlər arasında bu yoxdur. Onların hamısının bir-biri ilə ümumi sərhədləri yoxdur. Necə ki, bu, Avropa İttifaqının ölkələrində var. Eyni zamanda onlar arasında hansısa bir iqtisad birlikdən söhbət getmir. Bu proses başlamayıb. Buna görə də belə bir perspektiv qeyri-realdır".

**Ekspertin sözlərinə görə, türkdilli dövlətlərin birliyi daha çox mədəni, tarixi və bəzən siyasi meyarlar əsasında qurulub:** "Təbii ki, Azərbaycan və Türkiyə arasında birlik daha sıxdır. Ən yaxın ölkələrdir. Amma hələ bizim də aramızda o dərəcə bir iqtisadi birlik yoxdur ki, vahid valyuta yaradılsın. Bizim türkdilli dövlətlərin birliyi real iqtisadi və siyasi birliyə çevrilsə belə, bu, yaxın 50 il ərzində baş verməyəcək. Amma olması da sual altındadır. Bizi birləşdirən daha çox dilimizdir. Amma gəlin etiraf edək ki, azərbaycanlılar və osmanlı türkləri bir-birini başa düşür. Amma o biriləri biri-birini anlamır. Biz daha çox Türkiyənin dilini başa düşürük. Onların filmləri, musiqiləri ölkəmizdə çox populyardır. Türkiyədə insanlar heç tam olaraq bizim dilimizi başa düşmür. Bu realdır. Biz də 90-cı illərin əvvəllərində onları anlamırdıq. Siyasi əməkdaşlıq sözsüz ki, var. Amma reallıqda iqtisadi birlik güclü deyil. Azərbaycanın Rusiya ilə iqtisadi əlaqələri daha güclü və ciddidir. Buna görə də bu valyutanın yaranması üçün dövlətlər iqtisadi baxımdan birləşməlidir. Bu olmadığına görə hansısa valyutadan danışmağın yeri yoxdur".

❑ **"Yeni Müsavat"**

**Cənubi Qafqaz üzrə tanınmış britaniyalı ekspert Tomas de Vaalın "Foreign Affairs" jurnalında dərc olunan məqaləsində regionda baş verən prosesləri geniş təhlil etməsi Azərbaycanda birmənalı qarşılanmayıb.**



# Tomas de Vaalın dəyişən "val"ı - səbəb nə?

## Karnegi Fondunun eksperti Azərbaycanı Qərbi regiona buraxmamaqda, Türkiyə, İran və Rusiya kimi mövqe sərgiləməkdə ittiham edir, Zəngəzur dəhlizini Bakının zorla aça biləcəyini deyir

Müəllif məqaləsinə bu ilin aprelində Rusiya sülhməramlı kontingentinin gözlənilmədən Qarabağ bölgəsindən çıxarıldığını xatırladaraq Azərbaycanın mühüm neft və qaz ehtiyatlarına, güclü ordusuna və Azərbaycanla qarşılıqlı faydalı əlaqələrə malik güclü oyunçu kimi meydana çıxdığını qeyd etməklə başlayır. O, region ölkələrinin Rusiya və Qərb arasında "tektonik sürüşmələr" dövrü yaşadığını deyir, buna misal olaraq Ermənistanın və Gürcüstanın adını çəkir. Ekspert xatırladır ki, Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra Ermənistan Qərbə doğru daha qətiyyətli kurs tutdu və Gürcüstanda hakim partiya Avropa və ABŞ-la uzun illərdir mövcud olan sıx münasibətləri kəsməyə, Rusiya ilə yaxınlaşmağa çalışır.

Tomas de Vaal Qarabağ müharibəsindən sonra Rusiya ilə Azərbaycan arasında strateji münasibətlərin genişləndiyini, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin inkişafı üçün birgə layihələrin həyata keçirildiyini xatırladır. Ekspert yazır ki, Rusiya üçün bu dəhliz Qərblə yeni ticarət yollarının yaradılması və sanksiyalar səbəbindən məruz qaldığı iqtisadi itkilərin kompensasiyası üçün rəqabət planının tərkib hissəsidir. Onun sözlərinə görə, Zəngəzur dəhlizi açılarsa və Rusiyanın nəzarətinə keçərsə, bu, həm Ermənistan, həm də Qərb üçün "kabus"a çevriləcək. Belə olan halda Ermənistan İrana birbaşa çıxışını itirəcək, Rusiya isə İranla dəmir yolu və avtomobil əlaqələrinin qurulmasında ciddi irəliləyiş əldə edəcək. Ekspertin fikrincə, Rusiya və Azərbaycan Zəngəzur dəhlizinin açılması üçün birgə hərəkət etsələr, Ermənistanın bunun qarşısını almağa gücü çatmaz. Tomas de Vaal qeyd edir ki, Azərbaycan istəsə, bir neçə saat ərzində Zəngəzur dəhlizi adlanan əraziyə zorla nəzarəti ələ keçirmək üçün hərbi potensiala malikdir.

Tomas de Vaal yazır ki, görəsən, "Rusiya qanunu" kimi qəbul edilən bu qanun və Moskva ilə iqtisadi-siyasi əlaqələrin getdikcə inkişafı nəticəsində Gürcüstan Rusiya ilə yaxınlaşa və Kremlin "Azərbaycanla olduğu kimi", Gürcüstana da Cənubi Osetiya və Abxaziyanı hərbi yolla nəzarət altına almağa şərait yaratmasına səbəb ola bilərmi?

Axar.az yazır ki, De Vaal məqaləsində Azərbaycanı açıq şəkildə Qərbi regiona buraxmamaqda, Türkiyə, İran və Rusiya kimi mövqe sərgiləməkdə ittiham edir və Ermənistandan başqa "ümid yeri olmadığını" vurğulayır. Çünki Qərbi Cənubi Qafqaza daşıyan Ermənistandır; ona görə Ermənistana AB külli miqdarda yardım ayırır; ona görə ABŞ Ermənistan iqtisadiyyatını can-başla dəstəkləyir - de Vaal yazır.

Sayt onu da yada salır ki, Tomas de Vaal kimi Cənubi Qafqazı kifayət qədər yaxşı tanıyan şəxs yazılarda keçmiş Dağlıq Qarabağ ərazisini "mübahisəli torpaqlar" adlandırmağa cəsarət edib, Rusiyanın "xristian qardaşları" ermənilərə xəyanət etdiyini bildirib, rus sülhməramlıların Qarabağdan çıxmasından şoka düşüb. Onun düşüncəsinə görə, sülhməramlılar ermənilərin bir hissəsini geri qaytara da bilərdilər.

Son məqaləsində əsas narahatlığı Qərbin bölgəyə yerləşə bilməməsi, regiondakı dəhlizlərə nəzarəti itirəcəyi, iqtisadi-siyasi təsirinin azalmasıdır.

Bəs Tomas de Vaalın dəyişən "val"ına səbəb nədir? ABŞ-da yerləşən Karnegi Fondunun əməkdaşı olan Tomas de Vaal obyektiv mövqeyini niyə itirib?

**Siyasi ekspert Azad Məsiyevin "Yeni Müsavat"a bildirdiyinə görə, Azərbaycan Ermənistandan fərqli olaraq tam müstəqil xarici siyasət yürüdür və supergüclərin arasında manevr etmir, Qərbin əlində oyuncağa da çevrilməyib. Siyasi şərhçi hesab edir ki, Azərbaycan Cənubi Qafqazda ən güclü dövlətdir və balans siyasəti aparır. Onun fikrincə, bu da Qərbin bəzi dairələrini və ekspertlərini narahat edir**: "Ümumilikdə Qərbin Azərbaycana münasibəti qərəzlidir. Biz bu münasibəti Qarabağ məsələsində görməkdəyik. Azərbaycan regionda stabilliyin olmasında maraqlıdır deyə həm Rusiya, həm İran, həm də qardaş Türkiyə ilə əməkdaşlığı gücləndirir. Bu da Qərb mərkəzlərinin xoşuna gəlməyə bilər. Lakin Azərbaycan altılıq platformasının reallaşmasına səy göstərir və 3+3 layihəsinin baş tutması Qərbin regionda möhkəmlənməsinə qarşıdır. Ermənistan isə Qərbin əlində alət olmaqla bölgədə sabitliyin pozulmasında iştirak edir". **A.Məsiyevə görə, Qərb İrəvanın əli ilə regionu qarışdırmağa çalışa bilər, amma buna nail ola bilməyəcək:** "Ona görə də istər avropalı ekspertlərin, istər Qərbin güc mərkəzlərinin çıxışları olsun, bu addımlara pozuculuq niyyəti kimi baxmaq lazımdır. Azərbaycan region ölkələri, qonşuları ilə siyasi-iqtisadi əlaqələrini gücləndirməklə bölgədə dayanıqlı sülhün, təhlükəsizliyin və sabitliyin əldə olunacağını görməkdədir. Bunun alternativi yoxdur və qonşu dövlətlərlə münasibətləri gərgin saxlamaq heç zaman Cənubi Qafqaza rahat həyat gətirə bilməz".

**Siyasi şərhçi Fuad Əliyev de Vaalın "val"ı dəyişmədiyini düşünür, sadəcə, Ermənistan cəmiyyətində Paşinyan haqda müsbət fikir yaratmağa çalışır:** "Guya regionda yeganə "azadlıq adası" bu ölkədir, demokratiya guya yalnız Ermənistandadır, Paşinyan guya ölkəsini işıqlı tərəfə aparır, Azərbaycan və Gürcüstan isə Rusiyaya yaxınlaşırlar. Halbuki Paşinyan qədər Putinə yarınan, Ermənistan qədər də Rusiyadan asılı olan dövlət yoxdur. İkinci detal ondan ibarətdir ki, sülhməramlılar erməniləri qaytara bilərdi, amma etmədilər, yenə də mesaj ötürür ki, Rusiyaya etibar etmək olmaz. Məncə, Qərb texnoloqları və təbliğatçıları erməni ictimai rəyində anti-Rusiya ritorikasını daha da körükləyirlər. Amma Tomasın Qarabağın dağlıq ərazisini "mübahisəli yer" adlandırması reallıq hissini itirməkdir. O ki yaxşı bilir - istər yuxarı, istər aşağı Qarabağ olsun, bütün ərazilər Azərbaycanın yurisdiksiyasına daxildir. Bunu Paşinyan belə etiraf edib. İndi Tomas nə demək istəyir ki? Onun ölkəsi Böyük Britaniyanın Azərbaycana olan münasibətini, deyəsən, yaddan çıxarıb..."

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

**İrəvan hökuməti ötənlərdən dərs çıxartmayaraq destruktiv mövqeyini hələ də davam etdirməkdədir. Erməni rəsmilərin gah sülhdən danışması, gah da sülhə zərbə vuran açıqlamalarla çıxış etməsi bu ölkənin qeyri-ciddi imicini daha da aydın şəkildə ortaya qoyur.**

# Sülh sazişi - bir addım irəli, iki addım geri...

## Ermənistan rəhbərliyi hələlik öz yolunu və seçimini düzgün müəyyənləşdirə bilməyib; Paşinyan hakimiyyətinin sülhə zərbə vuran açıqlamaları təhlükəli perspektiv vəd edir



Konkretləşdirək: Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın 2024-cü ilin noyabrında Bakıda keçiriləcək COP29 iqlim konfransına qədər sülh müqaviləsinin imzalana biləcəyi ilə bağlı bəyanatlarına cavab verib. Deyib ki, tərəflər mətn üzərində işi tam başa çatdıra bildikdən sonra yer və vaxt daha çox müzakirə oluna bilər. "Əsas prinsiplər razılaşdırılıb, qalan yalnız onları sülh müqaviləsinin mətnində təkrarlamaqdır. Düşünürəm ki, bizim bu işi ən qısa zamanda başa çatdırmaq şansımız var", - deyə Paşinyan bildirib.

Amma elə həmin gün Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan parlament komissiyalarının birgə iclasında deyib ki, guya erməni cəmiyyətində də Azərbaycanın konstitusiya ilə bağlı narahatlıqları var. "Bu, uzunmüddətli sülhə maneədir. Lakin Ermənistanın konstitusiyanı dəyişməsi Azərbaycanın tələbi ilə baş vermir, bu, Ermənistanın daxili işidir", - Mirzoyan bildirib. Yada salaq ki, Ermənistan konstitusiyasının preambulasında yer alan müstəqillik bəyannaməsində həm Türkiyəyə, həm də Azərbaycana qarşı ərazi iddiaları var. Belə ki, bəyannamə "1915-ci ildə Osmanlı Türkiyəsində və Qərbi Ermənistanda gerçəkləşən soyqırımın tanınması"nı dəstəkləyir. Burada həm qondarma erməni soyqırımı barədə iddialar, həm də Türkiyənin "Qərbi Ermənistan" adlandırılması narazılığa səbəb olub. Ermənilər "Qərbi Ermənistan" dedikdə Türkiyə Respublikasının 6 şərq vilayəti - Ərzurum, Van, Bitlis, Diyarbakır, Harput və Sivası nəzərdə tuturlar. **Azərbaycan XİN rəhbəri Ceyhun Bayramov** isə erməni həmkarı Ararat Mirzoyanın Azərbaycan və Ermənistan konstitusiyalarında paralellik aparmaq cəhdini qəbuledilməz adlandırıb. Nazir qeyd edib ki, Ermənistanın müstəqillik aktında, konstitusiyasında, digər qanunvericilik aktlarında qonşu ölkələrə, Azərbaycana qarşı ərazi iddialarının olması faktdır: "Ermənistan cəmiyyətində belə diskussiyaların getməsi özlüyündə müsbət haldır. Amma Azərbaycan və Ermənistan konstitusiyaları arasında bu baxımdan paralellik aparmaq yolverilməzdir. Biz anlayırıq ki, bu, xarici tərəfdaşlarımızda çaşqınlıq yarada bilər. Ona görə biz bunu qətiyyətlə yolverilməz sayırıq və digər tərəfdaşlarımızı da bununla bağlı məlumatlandırırıq".

Göründüyü kimi, Ermənistanın baş nazirinin sülh sazişi ilə bağlı dedikləri irəliyə doğru addım sayılsa da, dərhal sonra hökumətin ən mühüm naziri sülhə əngəl olacaq fikir səsləndirir. Həm də yalan olduğunu bilərək. Ceyhun Bayramovun tutarlı cavabını da mənzərəyə əlavə etsək, bir addım irəli, iki addım geri təəssüratı yaranır. Bu isə optimizmə xüsusi əsas vermir. Belə görünür ki, Ermənistan rəhbərliyi hələlik öz yolunu və seçimini düzgün müəyyənləşdirə bilməyib. Ümumiyyətlə, Paşinyan hakimiyyətinin sülhə zərbə vuran açıqlamaları təhlükəli perspektiv vəd edir. Bəs ekspertlərimiz vəziyyəti necə dəyərləndirir?

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, sülh danışıqları ağır prosesdir**: "Həm də onu ağırlaşdıran Ermənistanın müstəqil qərar qəbul etmək imkanının məhdud olması ilə bağlıdır. Kənar müdaxilələr artmaqdadır. Hətta kənar qüvvələr Ermənistanın özündən xeyli qabağa gedib. Bugünlərdə ABŞ Konqresində Amerika Erməni Milli Komitəsinin (ANCA) təsiri altında olan bir qrup konqresmenin təşəbbüsü ilə "2025-ci Maliyyə İli üçün Milli Müdafiyə razılıq Aktı"na düşəlişlə bağlı məsələni müzakirəyə çıxaracaq. Səbəb isə "Azərbaycanı "artsax"a qarşı "soyqırımı təcavüzünə və suveren Ermənistan ərazisinin davam edən işğalına görə məsuliyyətə cəlb etmək"dir. Bu və bu qəbildən olan absurd müzakirələr, əlbəttə, sülh prosesinə mane olur. Həm də Ermənistan daxilindəki siyasi şərait, etiraz dalğası da sülh prosesini ləngidir. Biz artıq buna alışmışıq. Bilirik ki, Azərbaycandan fərqli olaraq, Ermənistan sülhə doğru stabil gedə bilmir. Gah geri çəkilir, gah tərəddüd edir, gah da irəliyə doğru addım atır. Hər halda, hazırkı vaxtda Paşinyan optimist görünür və sülh müqaviləsinin bu il bağlanacağına inandığını bildirir. Hətta "ən qısa zaman" ifadəsini işlədir.

Dəfələrlə qeyd etdiyimiz kimi, Azərbaycan tərəfindən problem yoxdur. Ermənistan hakimiyyəti iradə nümayiş etdirsə, sənəd imzalana bilər. İmzalanma yerini də seçmək tərəflərin iradəsinə bağlı məsələdir". **Ararat Mirzoyanın son bəyanatına gəlincə, S.Məmmədov bildirdi ki, konstitusiyaya əlavələr və dəyişikliklər etmək və ya yeni konstitusiya qəbul etmək Ermənistanın və erməni xalqının öz işidir, amma burada bizim və Türkiyənin maraqlarına toxunan məsələlər var**: "Bu, həm Ermənistanın müstəqillik bəyannaməsi, həm də konstitusiyası ilə bağlıdır. Müstəqillik bəyannaməsindəki "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" qərarı" sözləri və "Ermənistan Respublikası Osmanlı Türkiyəsi və Qərbi Ermənistanda 1915-ci il erməni soyqırımının beynəlxalq səviyyədə tanınması işini dəstəkləyir" ifadələrində həm ərazi iddiaları, həm də qondarma "soyqırım" iddiası yer alıb. Əgər o ifadələr bu aktdan çıxarılarsa, o zaman heç konstitusiyanın preambulasını da dəyişməyə ehtiyac qalmayacaq. Əsas problem Ermənistanın müstəqillik bəyannaməsindədir. Amma konstitusiyanın 13-cü maddəsinə də dəyişiklik edilməlidir. Bu maddə Ermənistanın dövlət bayrağı və gerbinin təsviri ilə bağlıdır. Bir sözlə, hər iki sənəddə dəyişiklik zəruridir, əlbəttə, bizi və Türkiyəni maraqlandıran hissələrdə. Qalanını özləri bilər. Bizi onların nə dövlət quruluşu, nə idarəetmə sistemi maraqlandırmır". STM təmsilçisinin əminliklə bildirdiyinə görə, Azərbaycan konstitusiyasında Ermənistanın maraqlarına toxunacaq heç bir müddəa yoxdur. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına gəldikdə isə oradakı "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir" müddəası Ermənistanı narahat etməməlidir. Azərbaycan delimitasiya və demarkasiya proseslərindən sonra Ermənistanın indiki sərhədləri daxilindəki ərazi bütövlüyünü tanıyacağını bəyan edib. Hazırda yalnız şərti sərhəd mövcud olan hissələrdə delimitasiya işlərinin başa çatması zəruridir. Beləliklə, Mirzoyanın müqayisəsi yersizdir. Hələlik isə vəziyyəti belə dəyərləndirə bilərik: proses ləng də olsa, müsbət istiqamətdə gedir. Əgər Ermənistanda daxili stabillik bərpa olunsa və Ermənistan hakimiyyəti kənar təsirləri dəf edə bilsə, ən azı ilkin sülh müqaviləsi və ya bir sıra məsələlər üzrə çərçivələri müəyyən edəcək sülh sənədi imzalana bilər. Ən yaxşı halda isə tərəflər sülh müqaviləsini imzalayıb bir-birini de-yure, gələcəkdə isə de-fakto tanıya bilər".

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı hesab edir ki, erməni cəmiyyətində Azərbaycan və Türkiyə ilə sülh sazişinin bu il bağlanmasına inananlar və COP29 zamanı bunun yaxşı fürsət olduğunu dəyərləndirənlər var:** "Paşinyan və XİN rəhbərinin razılaşdırılmamış məqamlarla bağlı bir-birinə zidd fikirlər səsləndirməsi də daxili auditoriyaya hesablanmış siyasətdir. Ermənistan payıza qədər konstitusiya dəyişikliyinə gedəcəkmi? Hakimiyyətin bunu etməyə gücü çatacaqmı? Çünki bu həll olunmasa, bağlanacaq sülh sazişinin konstitusiya ilə ziddiyyətli durumunda bir mənası olmayacaq. Onun parlamentdə təsdiqlənməsi çətinliyi var. Ermənistanın ana qanununun preamblua hissəsində ölkələrimizə qarşı ərazi iddiaları var və bu şəkildə sülhə nail olmaq mümkün görünmür. Hələ mən Azərbaycanın Qərb rayonlarından Naxçıvana maneəsiz keçidin təmin olunması ilə bağlı Ermənistanın öhdəliyini demirəm". **Q.Çaxmaqlı qeyd etdi ki, Mirzoyanın parlamentdəki çıxışında Azərbaycan konstitusiyası ilə bağlı ifadə etdiyi fikir Azərbaycanın varislik məsələsidir:** "Bu, erməniləri ona görə narahat edir ki, Azərbaycan AXC-nın varisi elan olunub və Ermənistanın böyük bir hissəsi Azərbaycan torpaqları sayılır, Ermənistan 1918-ci ildə elan olunanda onun ərazisi 9 min kvadrat kilometr idi. Paşinyanın 29,743 min kvadratkilometrlə Ermənistanı qorumaq canfəşanlığı bu qorxudandır. Sülh sazişinin imzalanması ilə əlaqədar tərəflərin son variant üzərində iş aparması yaxşı haldır, amma bu sülhə maneələr aradan qalxmayıbsa, konstitusiya əngəli ortadadırsa, nəticə əldə etmək çətin görünür".

**Politoloq İlyas Hüseynov isə qəzetimizə bildirdi ki, bu ilin noyabr ayına qədər Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi və ya onun "yol xəritəsi"nin imzalanması haqqında çox geniş fikirlər tirajlanır:** "Amma buna baxmayaraq, hər zaman olduğu kimi, Ermənistanın siyasi elitası bir-birini təkzib edən bəyanatlar verir. Ermənistanın konstitusiyasında və digər hüquqi aktlarında dəyişiklik edilməsi sülhlə bağlı İrəvanın niyyətini ortaya qoya bilər. Lakin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Azərbaycan və Ermənistan konstitusiyası arasında paralellər aparması tamamilə yolverilməzdir. Çünki Ermənistan konstitusiyasında açıq şəkildə Azərbaycan və qardaş Türkiyəyə qarşı ərazi iddiaları irəli sürülür. Qazağın 4 kəndinə ölkəmiz tərəfindən nəzarət edilməsi və sərhədlərin delimitasiyası sülhlə bağlı ehtimalları gücləndirsə də, belə görünür ki, Ermənistanın daxilində baş verən proseslər, Baqrat Qalstanyanın yürüşləri Ermənistanın siyasi rəhbərliyinə sülh və sabitlik yönündə daha cəsarətli addımlar atmağa imkan vermir". **İ.Hüseynovun fikrincə, buna baxmayaraq, sülh və əmin-amanlıq yolunda prosesin uzadılması Ermənistan üçün daha çətin problemləri yarada bilər**: "Buna görə də rəsmi İrəvan üzərinə götürdüyü öhdəlikləri vaxtında yerinə yetirməlidir ki, noyabrda sülhlə bağlı gözləntiləri reallaşdırmaq mümkün olsun".

E.PAŞASOY,
"Yeni Müsavat"

Yeni MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

**Avropa Parlamentinə (AP) seçkilər bütün Avropa İttifaqı (Aİ) ölkələrində iyunun 6-dan 9-dək keçiriləcək, əksər Avropa Birliyi (AB) ölkələrində isə bazar günü səsvermə keçiriləcək.**

# Avroparlamentə seçkilər: anti-Azərbaycan qüvvələr güclənə bilər

## Ekspertlər deyir ki, Avropa Parlamentinin yeni tərkibindən də ölkəmizə münasibətdə müsbət dəyişiklikləri gözləməyə dəyməz

Avroparlamentin Azərbaycana qərəzli münasibəti illərdir davam edir. Yeni seçkilərə ərəfəsi də ölkəmizə qarşı qərəzli qətnamələr qəbul edildi. Bu ilin 7 fevralda növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün Avropa Parlamentinə dəvət göndərilmədiyi halda, qurum "Azərbaycandakı seçkiləri müşahidə etməyəcəyi ilə bağlı" absurd açıqlama yaymışdı. Nəzərə almaq lazımdır ki, Avropa Parlamentində Azərbaycana qarşı yekdil mənfi rəy də mövcud deyil. Anti-Azərbaycan isteriyasının arxasında yalnız bir qrup parlamentari dayanır. Əsasən Fransanı, qismən də Almaniya və bir-iki cırtdan dövlətləri təmsil edən həmin deputatlar erməni diasporu ilə əlaqəli, yaxud Avropada mövcud olan islamafob, irqçi, səlibçi və türkofob dairələrin nümayəndələridir. Onların bir qismi Avropa Parlamentindəki seçkilər öncəsi anti-Azərbaycan qətnamələrinin sayını artırmaqla erməni lobbisindən maliyyə və seçici dəstəyi almağa çalışdıqları şübhə doğurmur. Azərbaycanın Avropa İttifaqı, həmçinin Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur, rəsmi Brüssel Azərbaycanı iradəsinə zidd olan heç nəyə məcbur edə, yaxud sanksiyalarla təhdid edə bilməz. Avropa Parlamentindəki seçkilərin nəticələri o barədə maraq doğura bilər ki, heç olmasa daha obyektiv düşüncəyə sahib adamlar mandat qazansınlar. Bəs buna ümid edə bilərikmi?

**Deputat Kamran Bayramov "Yeni Müsavat"a açıqlamasında dedi ki, bu seçkilərin Avropa Parlamentində qüvvələr nisbətinin nə dərəcədə dəyişə biləcəyi ətrafında uzun müddətdir ki, müzakirələr səngimir:** "Bu qurumda qüvvələr nisbətinin dəyişməsi isə ancaq Avropada deyil, həm də bütün dünyada beynəlxalq siyasətin əsaslı dəyişikliklərə məruz qalmasına səbəb olacaq. Bir sıra ixtisaslaşdırılmış tədqiqat təşkilatlarının rəy sorğularının nəticələri və təcrübəli siyasi şərhçilərin mülahizələri bu seçkilərin, bütövlükdə Avropanı sağa meyillləndirə biləcəyindən xəbər verir.

Avropa İttifaqının üzv dövlətlərində vahid səsvermə proseduru yoxdur, bu, həm açıq, həm də qapalı siyahılardan istifadə etməklə həyata keçirilə bilər. Dövlətlər, həmçinin müstəqil olaraq Avropa Parlamentinə keçmək üçün minimum həddi müəyyən edirlər. Hər bir ölkədə seçicilər milli partiyalara səs verirlər, seçilmiş namizədlər daha sonra siyasi baxışlarından asılı olaraq Avropa fraksiyaları arasında bölüşdürülür. Adətən milli partiyalar siyasi gündəmlərinə ən yaxın olan konkret fraksiyanı dəstəkləyirlər. Hazırda Avropa Parlamentində yeddi fraksiya fəaliyyət göstərir. Ən böyük fraksiya 178 yerə malik olan Avropa Xalq Partiyasıdır. Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı 141 yerlə ikinci, "Yenilənmiş Avropa" 101 yerlə üçüncü, iqlim gündəliyini təşviq edən "Yaşıllar"/Avropa Azadlıq Alyansı 71 üzvlə dördüncü, mötədil avroskeptiklər, antifederalistlər hesab edilən "Avropa Mühafizəkarları və İslahatçıları" 67 yerlə beşinci, sağ və ifrat sağçı siyasətçilər qrupu, avroskeptiklərin birliyi olan "İdentiklik və Demokratiya" 58 yerlə altıncı və kommunist baxışlı siyasətçiləri birləşdirən "Avropa Solçuları" 38 mandatla yeddinci yerdə qərarlaşırlar. Qalan 51 yer isə müstəqil deputatlara məxsusdur.

Bəs builki seçkilər əvvəlkilərdən nə ilə fərqlənir? Aparılan rəy sorğularına əsasən, avroskeptik, millətçi sağçılar çox güman ki, Avropa İttifaqının doqquz üzv-dövlətində, o cümlədən qurucu ölkələr olan İtaliya, Belçika, Hollandiya, Fransa və Almaniya daxil olmaqla, səsvermə siyahılarına başçılıq edəcək, daha doqquz dövlətdə isə ikinci və ya üçüncü yerlərdə qərarlaşacaqlar. Bütün bunlar Azərbaycan üçün nə vəd edir? Nəzərə alsaq ki, Avropa Xalq Partiyası keçirilən seçkilərin aparıcı qüvvələrindən biridir və onun mötədil və ifrat sağçı elementləri arasında daxili konfliktləri var, ökəmizə qarşı mənfi ritorikanın kəskinləşməsi qaçılmaz ola bilər. Eyni zamanda populist və millətçi siyasi partiyalar Avropada güclənməkdədir və çox güman ki, həmişəkindən daha güclü olacaqlar, bu da yenilənmiş Avropa Parlamenti ilə Azərbaycan arasında onsuz da sıfır səviyyəsində olan münasibətlərin daha da gərginləşməsi ehtimalını artırır. Avropa Parlamentinin ölkəmizə qarşı qərəzli münasibətinin illərlə davam etdiyini, sessiyalarında çoxsaylı anti-Azərbaycan qətnamələrin qəbul olunduğunu nəzərə alsaq, Avropa Parlamentinin hətta yeni tərkibindən belə Azərbaycanla münasibətlərdə müsbət dəyişiklikləri gözləmək ən azından sadəlövhlük olardı və buna ümid etməyə heç dəyməz".

**Ədalət, Hüquq, Demokratiya partiyası sədrinin müavini, politoloq Elçin Mirzəbəyli bildirdi ki, Avropa Parlamenti Aİ təsisatları arasında ən çox korrupsiyalaşmış qurumdur:** ""Transparency international" təşkilatının 2023-cü il üzrə açıqladığı hesabata görə, AP üzvü olan deputatların 2/3 hissəsi, qanunsuz olaraq, müxtəlif şirkətlərin idarə heyətlərində təmsil olunmaqla və onların lobbiçiliyini etməklə, hər il 3-8,5 milyon avro vəsait əldə edirlər. Təkcə may ayı ərzində AP-nin Almaniya və Niderlanddan olan parlamentariləri ilə bağlı 3 korrupsiya faktı qeydə alınıb. Aşırı sağçı "Almaniya üçün alternativ" Partiyasının Avropa Parlamentindəki təmsilçisinin adının "Russiangate" (rəşənqeyt) korrupsiya qalmaqalında da hallanması, bu partiyanın Avropa Parlamentindəki populist "İdentiklik və demokratiya" fransiyasının sıralarından çıxarılması ilə nəticələnib. Bu amillər, eləcə də Avropa Parlamentinin üzvlərinin son 5 il ərzində müxtəlif korrupsiya qalmaqallarında hallanması, bu təsisatın nüfuzuna ciddi zərbə vurub və ətrafında etimadsızlıq mühiti formalaşdırıb. Ümumi mənzərə, keçirilən sorğuların nəticələri və Aİ-də islamafob, ksenofob əhval-ruhiyyənin artması onu deməyə əsas verir ki, sağçı qüvvələrin tutduğu yerlərin sayı xeyli artacaq. Araşdırmaya görə, doqquz ölkədə - Avstriya, Belçika, Çexiya, Fransa, Macarıstan, İtaliya, Hollandiya, Polşa və Slovakiyada sağ radikal və avroskeptik partiyalar birinci, Bolqarıstan, Estoniya, Finlandiya, Almaniya, Latviya, Portuqaliya, Rumıniya, İspaniya və İsveçdə isə ikinci və ya üçüncü sırada yer alacaqlar. AP-dəki yerlərin demək olar ki, yarısını sağ mərkəzçi Avropa Xalq Partiyası (EPP), Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı və liberallardan ibarət superböyük koalisiyaya daxil olmayan qüvvələr tutacaq. "Bloomberg" tərəfindən aparılan ilkin sorğulara görə, EPP 183 mandat, yəni 23% səs qazanacaq. Öz növbəsində sol mərkəzçi Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı 140 yer, Liberal yenilənmə bloku isə 86 yer qazanacaq. Sağçı "İdentlik və Demokratiya" blokunun AP-də 84 yer qazanacağı proqnozlaşdırılır (hazırda 58 yeri var). Eyni zamanda Avropa Mühafizəkarlar və İslahatçılar fraksiyasının da mövqeyi güclənəcək. Yeni çağırışda onların əlavə 18 deputat mandatı alacağı və saylarının 85-ə çatacağı ehtimal edilir. Şübhəsiz ki, seçkilərin nəticələri Azərbaycan-Avropa Parlamenti münasibətlərinə də təsir göstərə bilər. Doğrudur, Avropa Parlamentinin qərarlarının, nəinki Azərbaycana, heç Aİ üzvü olan ölkələrə belə ciddi təsiri yoxdur. Amma yalan və saxta iddialardan ibarət qərarlarıyla, bəzən "ürək bulandıra bilir". Əgər sorğuların və təqdim etdiyim ehtimalların ümumi mənzərəsi seçkinin yekun nəticəsində öz əksini taparsa, o zaman AP-də qüvvələr nisbətinin qismən balanslı olacağını düşünürəm".

**Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**



# ABŞ Konqres Kitabxanasında "Sarı gəlin" yalanı

## Azərbaycanın xalq mahnısını Ruben Baboyanın adına "sənədləşdiriblər"



**"Bir ay əvvəl Ermənistan mətbuatı Sidney Robertson Kouellin (Cowell, Sidney Robertson, 1903-1995) kolleksiyasından "Erivan bachem arer" adlı mahnının hələ 1939-cu ildə ABŞ Konqres Kitabxanasında qeydiyyatdan keçdiyini xəbər vermişdi". Bu barədə Ayna.az saytı yazır. Yazıdan sitat: " Məlumatda qeyd olunurdu ki, azərbaycanlıların "Sarı gəlin" kimi tanıdığı mahnı 1939-cu il aprelin 16-da Türkiyədən gələn ermənilərin sığındıqları Amerikanın Fresno şəhərində (Kaliforniya ştatı) Sidney Robertson Kouell tərəfindən lentə alınıb. Mahnının özünü həvəskar vokalist və Fresno hotelinin aşpazı Ruben Baboyan ifa edib. O, anasının ona oxuduğu uşaqlıqdan tanış mahnıları oxuyurdu.**

"Erivan bachem arer" adlı mahnı ABŞ Konqres Kitabxanasında erməni mahnısı kimi qeyd olunub. Və 1939-cu ildə lentə alındığı üçün erməni təbliğatı bu faktdan "dəmir arqument" kimi istifadə edərək, "Sarı gəlin" mahnısının Azərbaycan mahnısı olmadığını sübut edir. Eyni zamanda erməni təbliğatı Ruben Baboyanın heç vaxt Azərbaycanda olmadığını və ömründə azərbaycanlılarla görüşmədiyini, ailəsinin Vandan gəldiyini, orada əslən azərbaycanlı olmadığını iddia edir. Və bu səbəbdən onun tərəfindən mahnının azərbaycanlılardan plagiat olması istisna olunur.

Gördüyümüz kimi, "Sarı gəlin"in erməni mahnısı olduğunu "sübut etmək" üçün çox mürəkkəb yol seçilib. Baxmayaraq ki, erməni təbliğatına "Sarı gəlin"in Azərbaycan mahnısı olduğunu sübut etmək çox asandır. "Sarı gəlin" mahnısının nota yazılmasının ən qədim nümunəsi daha çox Komitas kimi tanınan erməni musiqişünası və folklorşünası Soqomon Soqomonyana məxsusdur. Bu nota Komitasın əlində hazırlanıb və aşağıdakı kimi imzalanıb: "1913. İrəvan əyalətinin Sürməli uezdi".

Bu fakt "Komitas. Cild 12. Mahnı 276" kitabında qeyd edilib. Dəqiq desək, Komitas 1913-cü il iyulun 27-də Sürməli uezdinin Evçilər kəndində mahnının nota yazır. Kəndin adı Azərbaycan adıdır və 1947-ci ildə Arazap adlandırılana qədər belə olub. Məntiqli sual yaranır: Komitas azərbaycanlıların yaşadığı kənddə erməni xalq mahnısını necə eşidə bilərdi?"

O da vurğulanıb ki, 19-20-ci əsrlərin Qafqaz tədqiqatçıları ermənilərin öz milli musiqisi və musiqi ənənələri, hətta musiqi alətlərinin olmadığı yazıblar, bunu hətta ermənilərin özləri də etiraf ediblər: "Bundan əlavə, "Sarı gəlin" mahnısında formalaşma daxilində digər bölmələrə keçidlər kimi yalnız Azərbaycan mahnı və rəqslərinə xas olan texnikadan istifadə olunur. Məhz bir çox başqa nümunələrə xas olan bu inkişaf üsulu bu mahnı ilə bağlı Azərbaycan xalq musiqisinə xas olan arqumentləri təsdiqləyir".

**"Yeni Müsavat"**

# Bələdiyyələr icra başçıları üçün təhlükədir?

## Deputat yerli icra hakimiyyəti orqanları ilə bələdiyyələr arasında səlahiyyət və məsuliyyət bölgüsünü dəqiqləşdirməyə çağırdı

**Sosial Tədqiqatlar Mərkəzinin (STM) rəhbəri, millət vəkili Zahid Oruc Fərman Salmanlının "Yerli özünüidarəetmənin təməl prinsipləri və tarixi inkişaf mərhələləri" adlı yeni kitabının təqdimat mərasimində çıxış edərkən islahatlara çağırış edib.**

STM rəhbəri qeyd edib ki, bələdiyyələr hakimiyyətin qeyri-mərkəzləşdirilməsi üçün yaradılsa da, bəzən belə siyasəti güclü mərkəzi hökumət şəraitində dövlət sisteminə təhlükə kimi qiymətləndirirlər: "8 noyabr Zəfərindən sonra yeni institut, Prezidentin yerlərdə xüsusi nümayəndəsi təsisatının yaradılması, yeni bir qurumun yaşayış məntəqələrinin bərpasında müstəsna səlahiyyətlər qazanması, o cümlədən azad torpaqlardan kənarda, Naxçıvan Muxtar Respublikasının da idarəçiliyində xüsusi nümayəndəlik institutuna yer verilməsi Prezidentin Qələbədən sonra gələcək idarəçilik modelinin əsas konsepsiyasını təşkil edir". Millət vəkili vurğulayıb ki, təəssüf ki, bələdiyyə institutu yaradılandan ona icra hakimiyyətlərinin rəqibi kimi baxmağa çalışıblar. Deputat onu da deyib ki, qeyri-rəsmi rəqəmlərə görə, 2023-cü ildə bütün bələdiyyələrdə 36 milyon manat büdcə vəsaiti formalaşıb, lakin 1600-dən çox bələdiyyə üçün bu rəqəm 2005-ci ildəki 50 milyonluq səviyyədən də aşağıdır. Millət vəkili məlumat verib ki, STM-in keçirdiyi ictimai rəy soğrusunun nəticələrinə görə, sosial yardımların təminatçıları arasında bələdiyyələr 8.7%, yerli icra hakimiyyətləri 22.8%, nazirlik və komitələrin yerli bölmələri 43.4% təşkil edib. Onun sözlərinə görə, oxşar tendensiya məşğulluq sahəsində də mövcuddur.

"Razılaşın ki, qeyri-mütənasib bölgüdür və mərkəzi hakimiyyət orqanlarının üzərinə düşən vəzifələr daha çoxdur. Ona görə də əhali ilə birinci zolaqda, ictimai kommunikasiyada yerli sosial-iqtisadi ehtiyacların ödənməsi, ərazinin inkişaf planlarının yerinə yetirilməsi və nəhayət, kadr potensialının formalaşdırılması mümkün olardısa, onda ali icra hakimiyyətinin rəhbəri kimi Prezidentə və Birinci vitse-prezidentə edilən müraciətlərin sayı kəskin azalar, problemlərin siyasiləşdirilərək, mediada tirajlanması ilə dövlətin sosial siyasətinə kölgə salmaq ənənəsinə zərbə vurular, vətəndaş məmnuniyyəti artar və hakimiyyət orqanları arasında düzgün səlahiyyət balansı yaranardır".

Bəs STM-in sosioloji sorğusunun meydana çıxardığı qeyri-mütənasib vəziyyətin səbəbi nələrdir?



**İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a bildirdi ki, sosioloji sorğunun ortaya çıxardığı rəqəmləri kənar qoysaq təsbit doğrudur. Çünki yerli icra hakimiyyəti orqanları ilə bələdiyyələr arasında səlahiyyət və məsuliyyət bölgüsü pis vəziyyətdədir. Bələdiyyələrin fəaliyyəti və iş görmə sahəsi qanunlarla xeyli dərəcədə məhdudlaşdırılıb. Onların demək olar büdcəsi yoxdur:** "Azərbaycanın ümumi bələdiyyələrinin büdcəsi 49 milyon manata yaxındır. Bu, bir tək Türkiyədə Rizə şəhərinin bələdiyyəsinin büdcəsindən daha azdır. Bütün ölkə üzrə bələdiyyələrin büdcəsi, səlahiyyəti yoxdursa, onlar necə böyük əhatəli işlər, sosial proqramlar həyata keçirə bilərlər? STM-in ortaya çıxardığı vəziyyətin səbəbləri qanunvericilik bazasından qaynaqlanır. Bu vəziyyətin arzuolunan səviyyədə dəyişməsi üçün konstitusiya islahatlarına qədər addımların atılmasına ehtiyac var ki, yerli özünü idarəetmə institutları gücləndirilsin, onların həm səlahiyyəti, həm məsuliyyəti artsın. Bunun üçün isə yerlərdə ikili idarəetmə sisteminin uğur gətirmədiyini təsbit eləmək lazımdır. Yerli icra hakimiyyəti orqanları artıq idarəetmə mexanizmi kimi müddətini başa vurub. Bu sistem sovetdən qalma sistemidir, sadəcə, rayon partiya komitəsinin katibi sözü rayon icra hakimiyyətinin başçısı sözü ilə əvəzlənmişdi. Ona görə yerlərdəki icra hakimiyyətlərindən imtina edib yerli özünü idarəetmə institutunun gücləndirilməsinə ehtiyac var ki, sosial problemlərin həllində yerli hakimiyyət, yəni bələdiyyələr mühüm rol oynasın. Bu zaman vətəndaşların da tələb etmə və ya gözləntilərinin forması da dəyişəcək. İndiki reallıqda isə rayonlarda, kəndlərdə hətta kənd arası yolun təmirindən tutmuş, elementar kommunal məsələlərə görə şikayətləri vətəndaşlar Prezident Administrasiyasına, Nazirlər Kabinetinə edirlər, Prezidentin özünə belə müraciət edirlər. Halbuki bu kimi məsələlərlə yerli özünü idarəetmə orqanı olan bələdiyyə və müxtəlif sahə cavabdehləri olan qurumlar məşğul olmalıdırlar. Bələdiyyələrin bununla məşğul olmaları üçün isə qanunvericilik bazası olmalıdır. Birbaşa bələdiyyə başqanları seçkisi keçirilməlidir. Bu isə konstitusiyada dəyişiklik etməklə mümkündür. Vətəndaş hər gün təmasda olduğu insanları seçəcəksə, probleminin həllini ondan gözləyəcək və problem həll ediləcək. Seçilən insanlar isə vətəndaşa xidmət etməyə çalışacaqlar ki, növbəti seçkilərdə də səs qazana bilsin. Yəni bu sistemi təsis etmədən STM-in sorğusunun nəticələrindəki rəqəmlərdəki tərsmütənasiblik dəyişəsi deyil. Hörmətli Zahid Oruc problemin nəticələrini açıqlayıb, amma səbəblər qanunvericilik bazasındadır. Qanunvericilik bazası dəyişdirilməlidir ki, bələdiyyələrin səlahiyyəti və məsuliyyəti də artsın. Nəticələrin dəyişməsi üçün səbəblər aradan qalxmalıdır. İndiki qanunvericilik isə rayon icra hakimiyyətlərinin bələdiyyələr üzərində hökmranlığına şərait yaradır. İndiki qanunvericilikdə faktiki olaraq təyin olunmuşlar seçilmişlər üzərində hakimiyyətə malikdirlər".

**Ekspert qeyd etdi ki, inzibati ərazi vahidləri ilə bağlı yeni yanaşmanın ortalığa qoyulmasına da ehtiyac var. Azərbaycan kimi ərazisi çox böyük olmayan ölkədə 80-dən çox rayon var. Bu məsələ də problem qaynaqlarından biridir:** "Mərkəzi hakimiyyətin yükünün azalması üçün bələdiyyələrin gücləndirilməsi ilə yanaşı, 14 iqtisadi rayonu inzibati ərazi vahidinə çevirib onlara Prezidentin xüsusi nümayəndəsini təyin etmək lazımdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Azərbaycanda olan miqrantlarla bağlı sərəncam

## Vətəndaşlığı olmayan şəxslərin əmək fəaliyyətinə cəlb edilməsi məqsədilə Yüksəkixtisaslı Miqrant Proqramı təsis edilib

**Prezident İlham Əliyev yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə Yüksəkixtisaslı Miqrant Proqramı təsis edilib.

Nazirlər Kabineti proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış yüksəkixtisaslı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə və onların ailə üzvlərinə münasibətdə tətbiq ediləcək güzəştləri (ölkədə olmaq, yaşamaq və ya haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq hüququnun əldə edilməsi üçün tələb olunan sənədlər və onların sayı, icazələrin müddəti, iş icazəsi tələbindən azad olunma, müraciətlərə baxılma müddəti və s.) müəyyən edən normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli; şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarlarını və qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etməli, bu Sərəncamın 3.1-ci bəndində nəzərdə tutulan portal haqqında əsasnaməni və həmin portala inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısını üç ay müddətində təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Dövlət Miqrasiya Xidməti proqram iştirakçılarının müraciətlərinin qəbulunu və cavablandırılmasını "bir pəncərə" prinsipi əsasında təmin edən portalın yaradılmasını iki ay müddətində təmin etməli, portala daxil olan müraciətlərə baxılmanı Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində yaradılan "Yüksəkixtisaslı miqrantlar" altsistemi vasitəsilə həyata keçirməli, portalda olan fərdi məlumatların və portal vasitəsilə aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə tədbirlər görməlidir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, portalın aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etməlidir.

Xarici İşlər Nazirliyi Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə proqramın təbliğ və təşviq olunmasını təmin etməlidir.

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024



# Basbayır sənədləri

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud ekran çıxarışı olmayan film

**Bu yaxınlarda aliment probleminin ölkəmizdə nə qədər ciddi olmasından yazmışdıq. Təzəlikcə Türkiyədən gələn mədəniyyət xəbəri sanki sözlərimizi təsdiqlədi: rejissor Elvin Adıgözəlin çəkdiyi qısametrajlı “Bağışla məni bu gecə” filmi Sivasda keçirilən kino festivalında ən yaxşı film mükafatını almışdır və film məhz aliment mövzusunda imiş. Filmin qəhrəmanı aliment pulunu ödəməmək üçün arvadı ilə barışmaq istəyirmiş. Görək haçan ekranlara çıxır, baxarıq.**

Hərçənd ola bilər heç çıxmasın, çünki bizdə Azərbaycan filmlərinin göstərilməsi ciddi problemdir. Elə bu yaxında Mədəniyyət Nazirliyi Elvin Adıgözəlin başqa bir əsərinin - tammetrajlı “Biləsuvar” filminin hansısa kinoteatrda göstərilməsinə icazə verməmişdi. Dəstək olmaq yerinə, mane olurlar. Sözgəlişi, hələ 2020-ci ildə çəkilən bu gözəl film (şəxsən premyerasını izlədiyim üçün yazıram) indiyəcən geniş ekranlara çıxmayıb. Çoxlu festivallarda iştirak edib, ancaq azərbaycanlı tamaşaçılar baxmayıb. Görəsən niyə? Nə özləri (dövlət) çəkir, nə başqalarının çəkdiyini göstərməyə qoyurlar.

Hətta bu cızmaqaramın nə qədər mənasız, xeyirsiz olduğunu anlayaraq istəyirəm burada daha dəruni bir sual qoyum: “Görəsən, dünyaya nöş gəlir insan?”

İndi söz əlaqədar təşkilatlarındır, məsələn, Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin. Çünki xalqın aliment ödəmək tipli ailə vəziyyətlərinə də bu idarənin nəzarət etməsi ehtimalımız vardır. Lakin mümkün deyil. Niyə? Çünki təzə ferman çıxıb, xidmət ləğv olunmuşdur. Onun səlahiyyətlərini fırlatmaq isə elə Ədliyyə Nazirliyimizin özünə tapşırılmışdır. Prinsipcə, haqlı qərardır. Nazirliyin içində bir də əlavə dövlət xidməti yaratmaq nə anlam ifadə edirdi ki? Məsələn, bizdə Mədəniyyət Nazirliyi yanında Kino Agentliyi yaradılana qədər daha çox kino çəkilirdi. İdarələr çoxaldıqca məhsul azalır. Bu, bazar iqtisadiyyatının qanunudur.

Ola bilsin bəzi vətəndaşlarımız tərəddüdə qapılsın, “bəs kupçanı haradan alacağıq” fikirləşsin. Oranın adı buna oxşasa da başqa idarədir. Həmin yer Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətidir. Onun adı qabaqlar bir az başqa idi: Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti. (Qəsdən əlavə elədim ki, oxucular ümumiyyətlə heç zad qanmasın. Çünki mən bu yazını yazımın yanına yazı kimi yazmaq qərarına gəlmişəm. Elə olanda bazburutlu alınır).

İnsanlar kimi dövlətlər də dillərinin arxasında gizlənir. Dilini göstər, deyim sən kimsən. Burada mövzuya tam uyğun bir detala diqqətinizi çəkmək istəyirəm, çoxdan fürsət gəzirdim, indi tam yerinə düşdü. Bizdə kimsə ev, torpaq alanda dövlət ona mülk kağızı verməlidir. Sovet dağılana yaxın buna rusca “kupça” deyirdilər (sovetin özündə şəxsi, özəl mülkiyyət ümumiyyətlə yox idi). İndi isə camaat ev-zad alır, dövlət onlara normal sənəd vermək yerinə “çıxarış” verir. Çıxarış nədir? Bu axmaq termini ilk dəfə kim fikirləşib? Nəsimi adına Dilçilik İnstitutu hara baxır? AYB utanmıxdan niyə ölmür?

Guya sənədin orijinalı dövlətin arxivində qalır, sən də bunun surətini alırsan. Ona görə adına “çıxarış” deyilir. Təbii ki, boş arqumentdir. Adamın öz əmlakına hüququnu təsdiq edən sənəd elə orijinal olmalıdır. Surəti, lazım gəlsə, dövlət idarələrində qalsın. Lakin şanlı hökumətimiz bu mülk kağızına “çıxarış” adı qoymaqla xalqın alt şüurunda “bu ev-zad onsuz sənə məxsus deyil, haçan istəsəm səni qanunsuz şəkildə bayıra ataram, çıxararam” təəssüratı oyatmaq istəyir.

Camaat filan qədər pul xərcləyir, mülk alır, verilən sənədin adına bax... Çıxarış... Elə ondansa daha konkret “basbayır” qoymaq olmazmı?

---

**İsrailin baş naziri Benyamin Netanyahunun oğlu Yair Netanyahunun özünün X hesabında ötən həftə kürdlərin müdafiəsi ilə bağlı paylaşımı xüsusilə qardaş ölkənin mediasında hələ də ciddi müzakirə mövzusu olaraq qalır.**




# Türkiyəni “parçalamaq” istəyənlər yenə ortaya çıxdı

## Kürdüstan layihəsinin arxasında dünyanın böyük korporasiyaları və ABŞ dayanır

“Kürd dövləti projesi” məlumdur ki, yeni layihə deyil, əsasən də Qərb ölkələri tərəfindən illərdir ki, bu istiqamətdə işlər aparılır. Bir “kürd zolağı” yaratmağa çalışırlar. Türkiyə bunun qarşısını almaq üçün İraq və Suriyanın şimalındakı əməliyyatları zaman-zaman davam edir. Türkiyənin məqsədi öz sərhədlərində bu planın qarşısını alacaq bir təhlükəsizlik zolağı yaratmaqdır. Bu xəyali dövlətin sərhədləri də İraq (Şimal), Suriya (Şimal), İran (Güney Azərbaycan) və Türkiyənin (Cənub-Şərqi Anadolu) müəyyən ərazilərini əhatə edir. Planın başında bəzi Qərb dövlətləri, xüsusən də ABŞ-ın dayandığı bildirilir.

Sovet dönəmində də Azərbaycana yönəlik “Qırmızı Kürdüstan” və ya “Sovet Kürdüstanı” adlandırılan proje olub. Amma bu proje aradan qaldırıldı, bu gün də müzakirə predmeti deyil. Hazırda əsas hədəfləri İran, Türkiyə, Suriya və İraqın müəyyən ərazilərini əhatə edən “kürd zolağı” yaratmaqdır.

Belə bir xəritənin paylaşılması nəyə və kimlərə xidmət edir? Türkiyənin dünyada gücləndiyi bir vaxtda onun başını yenə belə separatizmlə qatmaq istəyənlər kimlərdir?

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov bu paylaşımı indiki vaxtda təsadüfi hesab etmir**: “Türkiyənin istiqrarı, gücü, sabitliyi və bütövlüyü bizim sabitliyimiz və bütövlüyümüzdür. Türkiyəyə atılan oxlar bizi də vurar. Nədən qaynaqlanır bu paylaşım? Bu bəlkə də Netanyahu hökumətinin içində olduğu çıxılmaz vəziyyətlə bağlıdır. Çünki İsrailin özündə belə bir sıra siyasi qüvvələr bu hökumətin istefasını tələb edir, mövcud hərbi kampaniyanı tənqid edirlər. Netanyahu hökuməti hərbi kampaniyaya qədər İsraildə onsuz da korrupsiya məsələləri ilə bağlı olaraq hüquqi problemlər yaşayırdı. Digər tərəfdən, Qəzzada aparılan hərbi kampaniya İsrailin imicinə ciddi ziyan vurub. Hətta İsrailin 1948-ci ildən sonra hamisi və müttəfiqi ABŞ belə öz narahatlıqlarını dilə gətirməkdədir. Dünyada Fələstini tanımaq istiqamətində başlanan kampaniya Avropa və Amerikanın məhəllələrindən parlamentlərinə keçdi. Artıq məsələn, bu gün Sloveniya belə Fələstini tanıdı. Ümumiyyətlə, tarixi prosesə baxanda Fələstin bütün antiimperialist güclərin qibləsi olub. Elə götürək qardaş Türkiyəni. Dindar olmayan kommunist Dəniz Gəzmiş də Fələstin üçün mücadilə edib, Türkiyədəki dindar dairələrin də insanları mücadilə edibdir. Yəni mövcud İsrail hökuməti getdikcə daxili və beynəlxalq dayaqlarını itirir. Fələstində şiddətli müqavimətlə üzləşir. Fələstində, Qəzzada, Rəfahda bombalar altında qalan körpələrin cəsədləri bütün dünyanı silkələyir. Təbii ki, türklər təbiətləri və tarixləri gərəyi həmişə məzlumun yanında olub və onun dininə belə baxmayıbdır. Çünki məzlumun dininə baxılmaz. Məhz buna görə də bir zaman İspaniyadan sürgün edilən məzlum yəhudilərə Osmanlı sahib çıxıb. 1918-ci il 15 iyunda Bakını ermeni qarışıq Senrokaspidən azad edən Nuru Paşa da bizim tariximizdə qardaşlıq naxışı toxuyub. İndi də Türkiyə Fələstindəki insanlıq dramını dayandırmaq üçün çalışır. Bütün diplomatik vasitələrini işə salır. Türkiyənin bu addımlarını isə beynəlxalq imperializm götürmür. Ona görə də istər sosial media üzərindən, istərsə də digər vasitələrlə Türkiyə hədəf alınır. Kürd zolağı məsələsinə gəldikdə, kürdlər bu coğrafiyanın qardaş xalqlarındandır. Ona görə PKK-PYD və kürd xalqını eyniləşdirmək olmaz. Kürd məsələsindən istifadə edərək Türkiyəni bölməyə çalışanlar daha sonra bizi də bölməyə qalxa bilərlər. Ona görə də bu cür məsələlərdə həssas olmalı və qardaş Türkiyənin yanında dayanmalıyıq. Türkiyə ilə ortaq hədəflərimiz olduğu kimi ortaq təhdidlərimiz də var. Türkiyəni hədəf alan istənilən addım bizi də hədəf almaq deməkdir. Bəzən eyforiyaya qapılmamaq lazımdır. Biz iki qardaş dünyanın önəmli dövlətiyik, biz Türk dünyasının göz bəbəyiyik və biz İslam dünyasının qalib dövlətiyik. Bu cür paylaşılan xəritələr isə yeni deyildir. Deməli, biz ehtiyatlı olmalıyıq, xarici siyasi kursumuzda yüksək dövlət iradəsinin, konkret olaraq birinci şəxsin fikirlərində, sözlərində konseptual mesajları tutmalıyıq. Bu paylaşım gələcəkdə hansı ssenarilərin ola biləcəyinə dair bizə işıq tutur. Biz heç bir xalqın, ölkənin dağılmasını istəmirik. Azərbaycan da, Türkiyə də bölgədə və dünyada sülhdən və əmin-amanlıqdan yanadırlar. Bu, Azərbaycan və Türkiyə xarici siyasətinin ana kursudur. Amma görünən odur ki, Qərb və onun lokal və regional müttəfiqləri bir sıra hallarda bununla razılaşmaq istəmirlər. Sovet Kürdüstanı məsələsinə gəldikdə isə bunu bu gün heç kim istismar edə bilməz. Azərbaycan bütün qardaş xalqların, o cümlədən də kürdlərin birgə yaşadığı möhtəşəm bir ailədir”.

**Siyasi təhlilçi Sona Əliyeva isə qeyd etdi ki, Kürdüstan layihəsinin arxasında dünyanın böyük korporasiyaları, eləcə də ABŞ və İsrail kimi dövlətlər dayanır:** “Bu layihə bir Britaniya projesidir. İndi onun icraçıları ABŞ, İsrail, Fransa kimi ölkələrin bədnam maliyyə donorlarıdır. Məqsəd isə türk dövlətçiliyini aradan qaldırmaq, "parçala, hökm sür" siyasətini yeni müstəviyə daşımaqdır. Güclü Türkiyə isə həmişə Kürdüstan projesinin önündə ciddi maneədir. İsrail baş nazirinin oğlunun paylaşdığı xəritə də məhz yenidən Türkiyəni bu çıxılmaz uçuruma sürükləməkdədir. Yair Netanyahu bu xəritəni Türk Ordusunun Metinada irəlilədiyi, bütün strateji yüksəklikləri nəzarətə götürdüyü vaxtda paylaşıb. Deməli, Türkiyənin İraqın şimalında möhkəmlənməsi yəhudilərin və amerikalıların maraqlarına böyük zərbə vurub. Hazırda Güney Azərbaycanda da vəziyyət gərgindir. Silahlı kürdlər əliyalın Azərbaycan türklərini sıxışdırıb çıxarmaq istəyir. Hətta son 20 ildə farslar tərəfindən xeyli sayda kürd Urmiya, Mərənd kimi ərazilərdə yerləşdirilib. İndi Təbriz əhalisinin demoqrafik vəziyyətini dəyişmək üçün varlı kürdlər üsyanlar şəhərinə yerləşdirilir. Düşünürəm ki, Güney Azərbaycanın qeyrətli oğulları bu prosesi durdurmağı bacaracaq. Kərkük türklərinin yaşadığı bölgələrdə də eyni durumdur. Vaxtilə Ərbil başdan-başa bir türkmən şəhəri idi. Sonra onların başına müsibət gətirən kürdlər türkmən qardaşlarımızı yerlərindən, yurdlarından didərgin saldılar. İndi Ərbil kürd separatçılarının əsas mərkəzidir. Bütün bunlar da ABŞ və İsrail dərin dövlətlərinin birgə oyununun bir parçasıdır. Düşünürəm ki, Türkiyə gücləndikcə Kürdüstan prosesi ləngiyəcək və proje kimi aradan qalxacaq".

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

# Gürcüstanın ərazi problemi - Azərbaycan variantı, yoxsa?

## Politoloq: ""Gürcü arzusu" Partiyasının seçkilərdə qalib gəlməsi və ya məğlub olması bu xəttin taleyini ciddi şəkildə müəyyən etmiş olacaq"

**Son aylar Gürcüstanın ərazi bütövlüyünü bərpa edəcəyi ilə bağlı xəbərlər artıb. Gürcüstanın baş naziri İrakli Kobaxidze 26 may Müstəqillik Günü ilə bağlı çıxışında deyib ki, məqsədləri "vəd edilmiş torpaqlar"ın qaytarılmasını və ya "gürcü arzusu"nu Gürcüstanın müstəqilliyinin 40-cı ildönümündə reallaşdırmaqdır.**



Baş nazir bildirib ki, söhbət konkret 2030-cu ildən gedir: "2030-cu ildə abxaz və osetin qardaş və bacılarımızla vahid və güclü Gürcüstanda yaşamaq arzumuzdur. Vahid və güclü Gürcüstan Avropa ailəsinin tam hüquqlu üzvü olmalıdır".

Abxaziya və Gürcüstanın konfederal dövlət çərçivəsində birləşdirilməsi ideyası hələ 2008-ci ilin avqust müharibəsindən əvvəl Moskvanın iştirakı ilə Tiflis və Suxumi arasında aparılan danışıqlarda müzakirə olunub. Bu danışıqlar Rusiya Abxaziya və Cənubi Osetiyanı müharibə nəticəsində faktiki olaraq işğal etdikdən sonra aparılıb həm də. 2008-ci ilin avqustunda Rusiyanın o zamankı prezidenti Dmitri Medvedyev Cənubi Osetiya və Abxaziyanın konfederasiyaya birləşməsini təklif edib, lakin Gürcüstanın o vaxtkı prezidenti Mixail Saakaşvili bu ideyanı rədd edib, aydındır Rusiyaya görə Qərb buna imkan verməyib. Nəticədə Rusiya separatçı regionların "müstəqilliyini" tanıyıb. İndi Suxumidə separatçılar artıq narahatdır ki, "Rusiyanın regional siyasətində tektonik plitələr dəyişdikdə" Abxaziya Moskva və Tiflisin "böyük planının bir hissəsinə çevrilə bilər". Cənubi Qafqaz üzrə tanınmış britaniyalı ekspert Tomas de Vaalın "Foreign Affairs" jurnalında dərc olunan məqaləsində də buna eyhamlar var.

Yəni ehtimal edilir ki, Moskva və Tiflis arasında hansısa pərdəarxası danışıqlar da var. Rusiyanın Ukraynaya təcavüzündən sonra Tiflis Qərb dövlətlərinin Moskvaya qarşı tətbiq etdiyi sanksiyalara qoşulmaqdan imtina edib, rəsmi olaraq Ukraynanı dəstəkləsələr də, öz ritorika və hərəkətlərində çox təmkinlidirlər.

Beləliklə, Gürcüstan özü üçün yeni hədəf müəyyən edib. Bəs bu nə qədər real görünür? Gürcüstan bu məsələdə Azərbaycanın yolunu izləyə bilərmi?

**Politoloq Anar Əliyev** "Yeni Müsavat"a bildirdi ki, son zamanlar Cənubi Qafqazda baş verən hadisələrdə xüsusilə də Azərbaycanın ortaya qoyduğu qətiyyətli iradənin davamı olaraq digər region dövlətlərində də bir sıra proseslərin, fərqli istiqamətlərə yönəlmiş addımların atıldığını müşahidə edirik: "Başlıca olaraq biz bu yanaşmanı Gürcüstanın davranışlarında görməyə başlamışıq. Gürcüstan da Azərbaycanın nümunəsindən istifadə edərək ərazi bütövlüyü ilə bağlı mövcud problemləri, separatçı rejimlərin ləğv edilməsi və ərazi bütövlüyünün təmin olunması istiqamətində müəyyən planlarını açıqlamaqdadır. Təsadüfi deyil ki, baş nazir Kobaxidze Gürcüstanın müstəqilliyi günündə çıxışı zamanı yaxın müddətli planlarından və perspektivdə ölkəsini gözləyə biləcək xoş hadisələrdən bəhs edib. Bu çıxışı zamanı Kobaxidze qısa müddət ərzində Gürcüstanın ərazi bütövlüyünün təmin olunması istiqamətində çox mühüm nəticələrin əldə olunacağını bəyan edib. Bu, təbii ki, Gürcüstan daxilindəki separatçı rejimləri ciddi şəkildə narahat edib. Hesab olunur ki, Azərbaycanın tətbiq etdiyi nümunə, İlham Əliyevin seçdiyi ağıllı siyasət nəticəsində heç bir qlobal güclə baş-başa gəlmədən məsafəli siyasət yeritməklə milli maraqları qorumaq və təmin etmək mümkün imiş. Eyni zamanda İlham Əliyev həm də fərqli bir nümunəni ortaya qoydu ki, Rusiya ilə düşmən olmadan, münasibətləri korlamadan, Qərbin yanında yer alıb Rusiyadan gələcək təhlükələri sığortalama siyasəti yeritmədən, tam əksinə, Rusiya ilə münasibətləri normal saxlamaq, strateji münasibətlər qurmaq və bunun əsasında yanlış klişeləri dəyişmək mümkündür. Rusiya liderləri hər zaman bu düşüncədə olublar ki, keçmiş sovet respublikaları Qərbin yanında yer alaraq bizə qarşı aparılacaq mübarizədə Qərbə dəstək verməyə çalışacaqlar. Ona görə də Rusiya hələ sovet hakimiyyətinin dağılmağa başladığı dövrlərdən davamlı olaraq süni milli, dini, etnik zəminli münaqişələr formalaşdırıb bu münaqişələri idarə etməklə bölgə dövlətlərinin iradəsinə təsir etmək və oradakı prosesləri yönləndirməyə çalışıb. Azərbaycan Prezidenti İlham Əliyev isə Rusiya ilə münasibətləri tamamilə fərqli prizmaya keçirməklə Azərbaycanın Rusiya əleyhinə heç bir platformada yer almayacağını, Rusiya əleyhinə aparılan mübarizələrdə iştirakı olmayacağını, tam əksinə, münaqişələr olmadan da keçmiş müttəfiq respublikalar kimi münasibətləri normal səviyyədə saxlamağın mümkün olduğunu və bu dövlətdən Rusiya üçün hər hansı bir təhdidin gəlməyəcəyi formulunu formalaşdırmış oldu. Kifayət qədər də uğurlu nəticələr əldə olundu. Bir çox hallarda gözlənilməyən, proqnozlaşdırılmayan nəticələri müşahidə etdik".

**Politoloq hesab edir ki, bu nəticələr bir çox dövlətlər kimi Gürcüstan üçün də bir nümunəyə çevrilib. Son dövrlər hakim "Gürcü arzusu" Partiyasının yeritdiyi xətt Azərbaycan Prezidenti İlham Əliyevin formalaşdırdığı yeni istiqamətdən nümunə götürüldüyünü deməyə imkan verir:** "Gürcüstan da bir sıra istiqamətli addımlar atmaqla, eyni zamanda "Xarici təsirin şəffaflığı haqında" qanunu qəbul etməklə kənar güclərin ölkə daxilində proseslərə müdaxilə imkanlarını zəiflədib həmin müdaxilə imkanları vasitəsilə anti-Rusiya mövqeyini möhkəmləndirə biləcək dairələri zəiflətmək, bununla da Rusiyada münaqişələr üzərindən deyil, normal münasibətlər qurmaqla da Gürcüstan ərazisində öz maraqlarını təmin edə biləcəkləri təsəvvürlərinin formalaşmasına çalışır. Hesab edirəm baş nazir Kobaxidzenin səsləndirdiyi bu fikirlər həm də bir növ Rusiya elitasına mesajdır ki, siz Gürcüstan ərazisindəki separatçı Abxaziya, Osetiya rejimləri vasitəsilə deyil, elə birbaşa Gürcüstan hakimiyyəti ilə işləməklə də bu bölgədə maraqlarınızı təmin edə bilərsiniz. Bu, çox ciddi bir mesajdır və ciddi bir plandır. Reallaşması nə dərəcədə mümkündür, hələ ki bunu qeyd etmək çox çətindir. Çünki Azərbaycandan fərqli olaraq Gürcüstan daxilində Qərb neoimperialist qüvvələrinin, xüsusilə də ABŞ-ın təsir alətləri çox genişdir, Amerikanın maraqlarına xidmət edən qruplar çox ciddi dərin köklərə sahibdirlər. Bu baxımdan qonşu ölkənin tutmağa çalışdığı xəttə qarşı Qərb qüvvələrinin və onun alətlərinin nə dərəcədə, hara qədər müqavimət göstərə biləcəyi, bu müqavimətə Gürcüstan hakimiyyətinin tab gətirib-gətirə bilməyəcəyi növbəti proseslərin axarına təsir göstərəcək. Hesab edirəm uzağı oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkilərində "Gürcü arzusu" Partiyasının seçkilərdə qalib gəlməsi və ya məğlub olması bu xəttin taleyini ciddi şəkildə müəyyən etmiş olacaq. Gürcüstan xalqı Azərbaycan nümunəsi ilə davam etmək istəyəcəksə, heç bir gücün əlində başqa bir gücə qarşı mübarizə aləti və meydanı olmaq istəməyəcəksə, "Gürcü arzusu" Partiyasını növbəti dəfə iqtidara gətirəcək. Bu halda orta perspektivdə Gürcüstanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı şansları daha da artmış olacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**




## Zəngəzur üçün son bir ay

**Bir, yaxud bir neçə həftədən sonra Ermənistanda qida qıtlığı yaranacaq, ardınca Zəngəzur dəhlizinin açılması zərurəti ortaya çıxacaq. Publika.az xəbər verir ki, bu barədə erməni şərhçi Hayk Martirosyan deyib.**

H.Martirosyan qeyd edib ki, Ermənistana daxil olan neft məhsulları və taxılın hamısı olmasa da, böyük hissəsi Gürcüstan marşrutu üzrə gəlir.

"Baş verən son daşqınlar nəticəsində bu marşrut üzrə dəmir yolu bir neçə yerdə ciddi zərər görüb. Dəmir yolunun təxminən 5-6, bəzi məlumatlara görə, daha çox hissəsi dağılıb. Loridən quru yollardan keçən magistral da zədələnib. Tavuşdan keçən yol isə Azərbaycanın nəzarətindədir. Dövlət orqanları yolun təmiri barədə düşünməyə başlayıb, yenə düşünürlər. Bəs dəmir yolu necə olacaq? Dəmir yolundan nəinki hakimiyyət söz açmır, hətta mətbuat da bu haqda heç nə yazmır. Bu vəziyyət tezliklə - bir neçə həftədən sonra Ermənistanda qida qıtlığına səbəb olacaq", - o deyib.

**Erməni şərhçi qeyd edib ki, taxılın quru yolla daşınması nəticəsində qiymətlər böyük ölçüdə artacaq:** "Həmçinin neft məhsulları bazarı çökəcək. Yanacağın qiyməti astronomik həddə çatacaq, hətta iki, ya üç dəfə arta bilər. Bu vəziyyət Zəngəzur dəhlizinin qaçılmazlığı məsələsini gündəmə gətirir. Yollar bərbaddır, dəmir yolu yoxdur. Buna görə Azərbaycan və Türkiyənin istədiyini verməkdən başqa yol qalmır. Azərbaycandan neft məhsullarının, Türkiyədən isə taxılın alınması zəruriliyi məsələsi eyni vaxtda gündəmə gələcək. Ardınca Zəngəzur dəhlizinin açılması aktuallaşacaq. Bu, Rusiyaya da sərf edən ssenaridir".

YENİ MÜSAVAT
N 99 (8471) 7 iyun 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Bölgələrdən şəhərə axının qarşısını necə almalı?

## İqtisadçı hesab edir ki, iş yerlərinin açılması təkcə dövlətin deyil, özəl sektorun da üzərinə məsuliyyət düşür, çünki...

**2024-cü ilin birinci rübü ərzində ölkədə 22,5 min yeni iş yerləri açılıb. Bu barədə mediaya Dövlət Statistika Komitəsindən bildirilib. Məlumata görə, bu dövrdə yaradılmış iş yerlərinin 94,1 faizi qeyri-dövlət sektorunda açılıb.**

Yeni açılmış iş yerlərinin 80,0 faizi Bakı şəhərinin, 1,7 faizi Naxçıvan Muxtar Respublikasının, 18,3 faizi digər regionların, o cümlədən 5,5 faizi Abşeron-Xızı, 2,1 faizi Gəncə-Daşkəsən, 2,1 faizi Lənkəran-Astara, 1,6 faizi Şirvan-Salyan, 1,4 faizi Şəki-Zaqatala, 1,1 faizi Qazax-Tovuz, 1,1 faizi Quba-Xaçmaz, 1,0 faizi Mərkəzi Aran, 0,9 faizi Şərqi Zəngəzur, 0,6 faizi Qarabağ, 0,6 faizi Mil-Muğan, 0,3 faizi isə Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşüb.

"2024-cü ilin ilk 3 ayı, 1-ci rübü ilə bağlı bəzi statistik məlumatlar açıqlanıb - yeni iş yerləri ilə bağlı rəqəmlər diqqət çəkir. 2024-cü ilin birinci rübü ərzində ölkədə 22,5 min yeni iş yerləri açılıb və bu iş yerlərinin 80%-i, yəni hər 10 iş yerindən 8-i Bakının payına düşür. Soruşulsa ki, bəs işğaldan azad edilmiş regionlarımızda nə qədər iş yeri açılıb, 2024-cü ilin I rübündə cəmi 292 yeni iş yeri açılıb".

"Yeni Müsavat" xəbər verir ki, bunu **iqtisadçı-ekspert Natiq Cəfərli** bildirib. "Fərqi, mənzərəni təsəvvür edirsinizmi? Biz 4 ildir bu haqda danışırıq, izah etməyə çalışırıq ki, indiki idarəetmə sistemi, iqtisadi model qalsa, Qarabağ və Şərqi Zəngəzura orqanik köç çətin olacaq, hətta ilk mərhələdə köçənlər sonradan Bakıya dönməyə çalışacaq. Çünki məhz bu modelə görə müstəqillikdən üzü bəri regionlardan Bakıya axın var, köç bitmir, bitməyəcək də - bütün iqtisadi, mədəni, sosial fürsətlərin Bakıda cəmlənməsi başqa nəticə doğura bilməz. Azərbaycanda yeni iş yerləri ilə bağlı statistika "delfin statistikasıdır" - dünyada belə bir statistika aparılır ki, delfinlər indiyədək dəniz və okeanlarda batan neçə nəfəri xilas edib, amma delfinlərin sahilə deyil də, dənizin-okeanın dərinliklərinə apardıqları insan sayı, təbii ki, məlum deyil. Bizdə də belədir - iş yerləri açılanda xəbər olur, qapanan iş yerləri ilə bağlı isə məlumatlar açıqlanıb səbəbləri müzakirə edilmir", - deyə ekspert əlavə edib.

Regionlardan köçün qarşısını almaq üçün nələr edilməlidir? Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən dövlət proqramları niyə istənilən effekti vermir?

**"Yeni Müsavat"a mövzu ilə bağlı danışan iqtisadçı ekspert Eyyub Kərimli isə fərqli düşünür. O hesab edir ki, statistik məlumatlara əsasən yeni iş yerlərinin açılması daha çox Abşeron-da müşahidə edilir:** "İllərdir həm hökumət bununla mübarizə aparır, həm də iqtisadçılar bunu vurğulayır. Qeyd edim ki, paytaxtla regionlar arasında disbalansı, tarazlı inkişafı təmin etmək üçün dövlət bununla bağlı iki dəfə geniş proqram qəbul edib. Ümumiyyətlə, hazırda dünyada urbanizasiya prosesi sürətlə gedir. Biz Avropa ölkələrinə də baxsaq, inkişaf edən ölkələrə də baxsaq, bu mənzərəni müşahidə edərik. Bu tək iqtisadi məsələ deyil, insanların şəhərə axını urbanizasiya məsələsidir. Bu gün insanlar daha çox sosiallaşmaq, şəhərin verdiyi mədəni, sosial üstünlüklərdən istifadə etməyi daha məqbul sayırlar. Sözsüz ki, bu gün regionlarda kənd təsərrüfatı inkişaf edir. Bununla bağlı əvvəllər dediyim kimi, proqramlar var. Bu gün rəqəmlərə də baxsaq, qeyri-neft sektorunda artımı da müşahidə edirik. Açılan iş yerlərinin ikisi regionların payına düşürsə, bu da reallığı əks etdirmir. Çünki statistik rəqəmlər hüquqi xarakter daşıyır. Bu, rəsmi şəkildə açılan iş yerləri ilə bağlıdır. Kəndlərdə iş yerlərinin əksəriyyəti qeyri-formal xarakterli olur. Bəzən mövsümi iş yerləri olur, insanlar orada qeydiyyatsız fəaliyyət göstərirlər. Gizli məşğulluq olduğuna görə real statistikada öz əksini tapmır. Reallıqda vəziyyət göstərildiyi qədər acınacaqlı deyil. Regionların turizm imkanları var".



**O ki qaldı işğaldan azad olunmuş bölgələrdə iş yerlərinin açılmasına, ekspert deyib ki, bunu Bakı ilə müqayisə etmək yanlışdır:** "İşğaldan azad olunmuş bölgələrimizdə məskunlaşma həyata keçirilir. Böyük Qayıdış proqramı var. İnsanlar ora qayıdır, məskunlaşır. Bu, bir ilin, bir ayın prosesi deyil. Bununla bağlı dövlətin geniş investisiya proqramları var, müəyyən güzəştləri var. Hələ mina təhlükəsi də davam edir. Hesab edirəm ki, növbəti illərdə iş yerlərinin açılması daha da sürətlənəcək. Çünki ora 10 min ailənin köçürülmsəi nəzərdə tutulub. Bu da gələcəkdə iş yerlərinin və məşğulluğun artmasına öz müsbət təsirini göstərəcək. Orada iş yerlərinin açılması da asan məsələ deyil. Bu, tək dövlətin deyil, iş yerlərinin açılması özəl sektorun da üzərinə düşür. İnsanların ora köçürülməsi üçün müəyyən infrastruktur, yaşayış məntəqələri qurulmalıdır. İnsanlara orada fərdi evlərin tikilməsi üçün, yaxud torpaq sahələrinin olmasına şərait yaradılmalıdır. Bu da növbəti illərdə sürətlə həyata keçiriləcək. Biz yaxın gələcəkdə işğaldan azad olunan ərazilərin inkişaf etməsini görəcəyik. Çünki o bölgənin geniş iqtisadi potensialı var. Qarabağ, Şərqi Zəngəzur İqtisadi Zonası gələcəyin iqtisadi "driveri"nə çevriləcək. Paytaxtdan heç də geri də qalmayacaq. İnsanlar da daha çox o bölgələrdə fəaliyyət göstərməyə can atacaqlar, nəinki paytaxta".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# İşdən çıxarılan icra başçısı haqda iddialar

## Qusardan sonra Beyləqanın rəhbəri də kreslosunu itirdi - onun haqqında da çoxsaylı şikayətlər vardı

**Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Əzizağa oğlu Ağayev vəzifəsindən azad edilib. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev iyunun 6-da sərəncam imzalayıb. Qeyd edək ki, Asif Ağayev 2018-ci il oktyabrın 30-da bu vəzifəyə təyin edilmişdi.**

Ağayev Asif Əzizağa oğlu 1961-ci ildə Sabirabad rayonunun Ulacalı kəndində anadan olub. 1988-ci ildə Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutunu inşaatçı-mühəndis ixtisası üzrə bitirib. Əmək fəaliyyətinə 1979-cu ildə Sabirabad kolxozlararası tikinti idarəsində fəhlə kimi başlayıb. Sonralar "ŞelfLahiyəTikinti" İstehsalat Birliyinin 1 saylı Tikinti Quraşdırma İdarəsində usta, Azərbaycan Qaçqınlar Komitəsinin Sabirabad rayon 4 saylı SMD-də mühəndis, iş icraçısı, "ŞelfLahiyəTikinti" İstehsalat Birliyinin 1 saylı Tikinti Quraşdırma İdarəsində Plan, iqtisad və əmək haqqı şöbəsinin mühəndisi, "XəzərDənizNeftQazİnşaat" Tresti SMD-də iş icraçısı, sahə rəisi, "XəzərDənizNeftQazİnşaat" Tresti 2 saylı İTQ İdarəsində sahə rəisi, baş mühəndis, "Terminal" MMC-nin direktoru, ARDNŞ-nin "AzərNeftYağ" Neft emalı zavodunda direktorun əsaslı tikinti üzrə müavini, ARDNŞ-nin "AzəriQaz" İstehsalat Birliyində baş direktorun əsaslı tikinti üzrə müavini, ARDNŞ-nin Xəzər Dəniz Neft Donanmasında ümumi məsələlər üzrə rəis müavini, ARDNŞ-nin "Neft Kəmərləri" İdarəsində tikinti və təmir üzrə rəis müavini vəzifələrində işləyib.



2013-2018-cü illərdə Şamaxı Rayonu İcra Hakimiyyətinin başçısı işləyib. YAP üzvüdür, 2 övladı var.

Mediada yayılmış iddialarda Asif Ağayevin SOCAR-ın sabiq prezidenti, iqtisadiyyat nazirinin indiki müavini Rövnəq Abdullayevin kadrı olduğu deyilir.

2022-ci ilin sonunda mediada yenidən Asif Ağayevin adı hallanmağa başladı. Onun hətta həbsinə hazırlıq getdiyi barədə iddialar vardı. Bildirilirdi ki, onun həbs edilməsinə səbəb Beyləqan rayonuna ayrılan dövlət vəsaitlərinin mənimsənilməsi və barəsində cinayət işinin açılması faktı ilə bağlıdır.

Onun Baş Prokurorluq tərəfindən aparılan cinayət işi ilə əlaqədar olaraq istintaqa çağırılaraq sorğulandığı və hətta ölkəni tərk etməmək haqda iltizam alındı da deyilirdi. Asif Ağayevdən əvvəl Vaqif Abdullayev 8 il icra başçısı olmuşdu. Onun haqqında da çoxsaylı şikayətlərə rast gəlmək mümkün idi.

Müasir Beyləqan rayonu öz tarixi adını 1989-cu ildə alıb. Bu ilə qədər isə rayonun adı Jdanov olmuşdur. Beyləqan (Jdanov) rayonu Azərbaycan SSR-də inzibati rayon kimi 1939-cu ildə təşkil edilib. Cənub-şərqdə İranla həmsərhəddir. Azərbaycan Respublikasının İmişli, Füzuli, Ağcabədi və Kür çayı vasitəsi ilə Zərdab rayonları ilə həmsərhəddir. Rayonda 1 şəhər, 6 şəhər tipli qəsəbə, 34 kənd yaşayış məntəqələri var. Rayonun şimal-şərq sərhədindən Kür çayı, cənub-şərq sərhədindən Araz çayı axır. Ərazisində əsasən boz, çəmən boz və yovşanlı-şoranotlu yarımsəhra bitkiləri geniş sahə tutur. Meşələri var.

Prezident İlham Əliyev Qusar Rayon İcra Hakimiyyətinin başçısının da vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Beləliklə, son bir həftədə iki icra başçısı vəzifəsini itirdi.

❑ **"Yeni Müsavat"**

# Sabiq baş nazirdən DTK-nın keçmiş sədri haqda şok açıqlamalar

## Pənah Hüseyn: "4 iyun qiyamından sonra onu Surət Hüseynov azad etdirdi..."

**Xəbər verildiyi kimi, Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri olmuş (1989-1991) Vaqif Hüseynov vəfat edib. Vaqif Hüseynov ömrünün 82-ci ilində Rusiyada dünyasını dəyişib.**

Qeyd edək ki, Vaqif Hüseynov 27 noyabr 1942-ci ildə Quba şəhərində anadan olub.

Orta təhsilini başa vurduqdan sonra 1961-1964-cü illərdə SSRİ Silahlı Qüvvələrində hərbi xidmət keçib. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Ali təhsilini başa vurduqdan sonra jurnalist kimi bir sıra mətbu orqanlarda - "Sport", "Molodyoj Azerbaydjana", "Olimpiyskaya Panorama" qəzetlərində, o cümlədən Azərbaycan televiziyasında fəaliyyət göstərib.

Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin katibi, Kommunist Partiyasının Bakı şəhər üzrə birinci katibi, Azərbaycan SSRİ Olimpiya Komitəsinin sədri, DTK sədri və digər vəzifələrdə çalışıb. 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində isə Rusiyanın geosiyasi analitiki və "Sistema" şirkətinin rəhbərlərindən biri kimi fəaliyyət göstərib.

Vaqif Hüseynovun ölümü onun adını yenidən diqqət mərkəzinə gətirib.

**Sabiq baş nazir Pənah Hüseyn** Vaqif Hüseynovla bağlı "Yeni Müsavat"a maraqlı açıqlamalar verib. Pənah Hüseyn bildirib ki, Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vaqif Hüseynov tarix üçün ibrətamiz bir taledir: "Öz dövlətinə, xalqına yox, başqa bir dövlət, millətə xidmət eləmək, başqa bir antimilli ideologiyanın əsgəri olanların taleyi baxımından ibrətamizdir. Bizdə adət var ki, ölənin



dalınca ya yaxşı danışırlar, ya da heç danışmırlar. Amma Vaqif Hüseynov əlbəttə ki, Azərbaycan tarixinin çox mühüm bir dönəmində əsas rollardan birini oynadığına görə, hər halda, ona münasibət bildirilməlidir. Mənə bu barədə bir neçə media orqanlarından zəng elədilər. Mən əksəriyyətinə "şərhim yoxdur" dedim. Amma indi düşünürəm ki, hər halda, müəyyən məsələlərə aydınlıq gətirilməsi lazımdır".

**P.Hüseyn xatırladıb ki, Vaqif Hüseynov Əbülfəz Elçibəy prezident seçildikdən sonra 1990-cı ilin yanvar hadisələrinə görə təqsirləndirilərək həbs olunmuşdu:** "Surət Hüseynovun 1993-cü ilin 4 iyun qiyamından sonra Vaqif Hüseynov azad olundu. Onun həbsdə olduğu müddətdə Ali Sovetin deputatı Arif Rəhimzadənin rəhbərliyi ilə Vaqif Hüseynovun hüquqlarını müdafiə komitəsi yaradılmışdı. Çox aqressiv bir iş aparılırdı. Əbülfəz Elçibəy hakimiyyəti devrildikdən sonra Vaqif Hüseynov azad edildi və bir müddət sonra Moskvaya getdi. Sonralar yazdığı memuarlarında bildirir ki, onun həbsdən azad olunması üçün birbaşa Surət Hüseynov əsas rol oynayıb".

**Sabiq baş nazir bildirib ki, Vaqif Hüseynov o dövrün partiya sovet nomenklaturasında kifayət qədər nüfuza malik fiqur idi. Eyni zamanda onun barəsində bir qədər şişirdilmiş təsəvvürlər yaradılmışdı:** "Onun xüsusi təşkilatçılıq qabiliyyəti, intellektual səviyyəsi barədə, fikrimcə, olduğundan bir qədər şişirdilmiş, süni olan imic yaradılmışdı. 1980-ci illərin sonunda bütün aparılan fəaliyyətin məntiqi nəticəsi onun Azərbaycana rəhbər təyin olunması ilə nəticələnməli idi. Amma 1990-cı ilin yanvar ayında Azərbaycan SSRİ Kommunist Partiyasının birinci katibinin təyinatı məsələsi müzakirə edilərkən məhz Vaqif Hüseynovun təyin olunacağı gözlənilirdi. Ayaz Mütəllibovun təyin olunması gözlənilməz oldu. Vaqif Hüseynov özü bu məsələyə aydınlıq gətirərək bildirmişdi ki, onun birinci katib təyin olunmamasında SSRİ KQB-si və Baş Kəşfiyyat İdarəsi arasında ziddiyyət rol oynayıb. Baş Kəşfiyyat İdarəsinin generalı Viktor Polyaniçko Mütəllibovun birinci katib təyin olunmasına nail olub. Ola bilər ki, Vaqif Hüseynov bunu 1990-cı il yanvar hadisələrində özünün mənfi rolunu bir qədər pərdələmək üçün də bu cür yazıb. Çünki həm də yazıb ki, o hadisələrdə DTK deyil, daha çox SSRİ Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin hərbi hissələri rol oynayırdı. Vaqif Hüseynovun bu iddiaları sonradan araşdıramalar nəticəsində müəyyən mənada təsdiqini tapmışdı ki, Baş Kəşfiyyat İdarəsinin Pirəkşüküldə və Badamdarda yerləşən 22-ci əlahiddə briqadası o hadisələrdə rol oynayıb və ruslara atəşi də onlar açıb".

**P.Hüseyn onu da qeyd etdi ki, istənilən halda Vaqif Hüseynov o dövrdə milli demokratik qüvvələrin, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin ideyalı düşmənlərindən biri kimi çıxış edirdi:** "İndiki terminlə ifadə eləsək, Azərbaycandakı Rusiya "beşinci kolonu"nu səfərbər eləyən əsas fiqurlardan biri idi. Sonrakı illərdə isə hətta Moskvada Xocalı canisi Robert Köçəryanla birlikdə "Sistema" şirkətində işlədi. Vaqif Hüseynovun Robert Köçəryanla eyni şirkətdə işləməsi onu xarakterizə etmək üçün əyani dəlillərdən biridir. Hansı məqsədlə, motivlə olur-olsun bu, öz millətinə və dövlətinə qarşı çıxmaq, həm də özünə qarşı çıxmaqdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Vasif Talıbovun postu uğrunda mübarizə

## Ali Məclis sədri kim olacaq?

**Yaxın vaxtlarda Azərbaycanda parlament seçkilərinin keçiriləcəyi gözlənilir. Milli Məclisə seçkilərlə yanaşı, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə də seçkilər keçiriləcək.**

TNS-in əldə etdiyi məlumata görə, Naxçıvanın yeni rəhbərliyi namizəd axtarışındadır. Artıq Ali Məclisin deputatı seçilmək üçün namizədliyini irəli sürəcək şəxslər müəyyənləşdirilir. Ali Məclisə seçkilərdən sonra Vasif Talıbovun boş qalan vəzifəsinə də seçki olmalıdır.

Saytın iddiasına görə, bu posta ən çox adıçəkilən şəxslərdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynlidir. Vaxtilə Vasif Talıbovun ən etibarlı adamlardan biri olan Ülvi Hüseynli Naxçıvanın yeni rəhbərliyinin dəstəyini alarsa, bu vəzifəni tuta bilər.

Sayt yazır ki, ixtisasca jurnalist olsa da, indiyədək siyasi proseslərdə iştirak etməyən birinin bu vəzifəyə gətirilməsi Naxçıvana nə qazandıracağını demək çətindir.

Yada salaq ki, Vasif Talıbov 1995-ci ilin dekabr ayından 2022-ci ilin dekabrınadək Ali Məclis sədri vəzifəsində çalışıb. Naxçıvan MR Konstitusiyasının 30-cu maddəsinə əsasən, Ali Məclisin sədri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini itirdikdə müəyyən edilmiş müddətdə yeni sədr seçilənə qədər onun səlahiyyətlərinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məclisi



Ülvi Hüseynli



Anar İbrahimov

sədrinin birinci müavini, o da olmadıqda müavini tərəfindən yerinə yetirilir. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin səlahiyyətləri-ni müavin postuna ötən ilin mayından Qıvraq seçki dairəsindən deputat Anar İbrahimov yerinə yetirir.

Anar İbrahimov Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədridir. Onun da bu dəfə Ali Məclis sədri seçilərində şansları olmamış deyil.

Naxçıvan Ali Məclisinin sədri bu qanunverici orqan tərəfindən seçilir, ona tabedir və ona hesabat verir. Yaşı 30-dan aşağı olmayan, muxtar respublikanın ərazisində 5 ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Ali Məclisin hər bir deputatı sədr seçilə bilər.

Müstəqillik dövründə Ali Məclisə 4 nəfər rəhbərlik edib. Afiyəddin Cəlilov noyabr 1990 - aprel 1991 tarixlərində Naxçıvan MR Ali Məclisinin sədri olub. Heydər Əliyev 3 sentyabr 1991 - 15 iyun 1993-cü il tarixləri arasında Ali Məclisə sədrlik edib. 1994-cü ilin aprelindən, 1995-ci il iyulunadək Ali Məclisə Namiq Həsənov rəhbərlik edib. Vasif Talıbov 1995-ci ilin dekabrından 2022-ci ilin dekabrınadək Naxçıvan Ali Məclisinin sədri vəzifəsində işləyib.

Qanunvericiliyə görə, muxtar respublikaya Ali Məclisin sədri rəhbərlik etməlidir, lakin səlahiyyətli nümayəndəlik institutunun da təsis edilməsindən sonra ortaya çıxan bir sıra suallar həllə də aktuallığını qoruyur. Yəni indi Ali Məclis sədrinin müavini nazir təyinatlarını həyata keçirirsə, səlahiyyətli nümayəndə o halda ümumi koordinasiyaya cavabdehdir.

Naxçıvandakı mənbələrdən aldığımız məlumata görə, hazırda Ali Məclisə faktiki rəhbərlik edən Anar İbrahimov ən şanslı namizəddir. Həm təcrübəsi, həm də siyasi savadı Ali Məclisin sədri postuna tamamilə uyğundur. Ülvi Hüseynliyə gəlincə, onun Ali Məclisin sədri vəzifəsinə gətiriləcəyi halda narazılıqların genişlənəcəyi istisna olunmur. Qaynağımız deyir ki, bu Vasif Talıbov dönəmində əsasən Şərurdan olan kadrlara üstünlük verilirdisə, bu gün kadrlar Şahbuzdan seçilir, irəli çəkilir. Ülvi Hüseynli də Şahbuz rayonundandır, yeni təyin olunan baş nazir də eyni rayonun yetirməsidir. Bu baxımdan, Ali Məclis sədrinin də eyni rayondan olması bəzi xoşagəlməz dedi-qodulara yol aça biləcəyindən, Ülvi Hüseynlinin bu posta təyinatı inandırıcı görünmür.

Qaynağımız bildirib ki, Anar İbrahimov çirkaba bulaşmayan kadrdır, onun təyinatı ümumilikdə Naxçıvan əhalisinin mənafeyinə uyğun olar. Ülvi Hüseynli haqda isə bu fikri işlətmək yersizdir. O, Vasif Talıbovun kadrı olaraq sırf şəxsi mənafelərini ilk cərgəyə qoyacaq, Talıbovdan qalan feodal üsul-idarə ilə işləyəcək. Əhali isə Vasif Talıbov idarəçiliyindən bezdiyindən Ülvi Hüseynlinin bu posta gətirilməsi Naxçıvanda mənfi emosiyalar yaradacaq.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

# Büdcəyə dəbdəbəli binalar yükü

## Ekspert: “Dünyanın aparıcı ölkələrinin mərkəzi bankları olduqca sadədir, 6-7 mərtəbədən ibarətdir və...”



**Mərkəzi Bank hələ 2020-ci ilin fevralında yeni inzibati binasının detallı layihələndirilməsi və tikintisi üçün tender elan etmişdi. Bundan bir il sonra “Tekfen İnşaat” şirkətinin tenderin qalibi olduğu bildirilmişdi. Türkiyə şirkəti Bakıda bir sıra layihəni həyata keçirib. “SOCAR Tower”, Bakı Olimpiya Stadionu, Vergilər Nazirliyinin inzibati binası kimi bahalı layihələr “Tekfen İnşaat”a qismət olub. Onda tenderin qalibi ilə 218 milyon avro dəyərində müqavilə imzalandığı açıqlanmışdı. Yeni ümumi xərclərin 450 milyon manat olduğu qeyd edilirdi. Mərkəzi Bankın binasının tikintisinə ayrılan vəsait 770 milyon manata çatıb. Məbləğ birdən-birə 320 milyon manat artırılıb. Müqaviləyə əlavə edilmiş yeniliklərə görə, məhz binanın ucaldılmasına 637 milyon manat gedəcək. Amma 133 milyon manat da inzibati binanın mebel və avadanlıqla təmin edilməsinə xərclənir. Mərkəzi Bankın yeni inzibati binası 37 mərtəbədən ibarət olmalıdır. Sahəsi 68 min kvadratmetrə çatır. Bakının Heydər Əliyev prospektində yerləşən binanın hündürlüyü 168 metrə bərabər olacaq. O vaxt tikintinin 36 aya yekunlaşacağı bildirilmişdi. Mərkəzi Bankın yeni binasının tikintisinə ayrılan vəsaitin az qala 1 milyard manata çatması ictimaiyyət heyrətlə qarşılayıb. Ekspertlər, sosial media istifadəçiləri büdcənin çiyinlərinə belə ağır yükün qoyulmasını lazımsız sayırlar. Mərkəzi Bankın işçi sayı bəlkə heç 300 nəfərə çatmır. Bu qədər xərcə nə ehtiyac vardı?! Cəmi 12 milyard dollar aktivi olan quruma az qala 1 milyard manata bina tikilir. Əlbəttə, dəbdəbəli bina göz oxşayır. Amma indi Azərbaycanın Qarabağı dirçəltmək kimi bir yükü olduğu vaxt büdcəyə bu qədər məsrəf etmək gərəkirmi. Həm də Milli Bankın iki binası ola-ola...**

**İqtisadçı-alim Vüsalə Əhmədova** mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, müharibədən çıxmış, iqtisadi vəziyyətin heç də qənaətbəxş olmadığı bir vaxtda Mərkəzi Bank üçün belə bir yüksək büdcəli layihənin həyata keçirilməsinin heç bir məntiqi əsası yoxdur: “Dünyanın aparıcı ölkələrinin mərkəzi banklarının inzibati binalarına nəzər yetirək. Dünya iqtisadiyyatına yön verən ABŞ mərkəzi bankı 6-7 mərtəbəli adi inzibati binadan ibarətdir və heç bir qeyri-adi memarlığı da yoxdur. Həmçinin 408 milyard funt sterlinq rezervi olan İngiltərə Mərkəzi Bankının da 7 mərtəbəli sadə inzibati binası var. Yenə, 297 milyard dollar rezervi olan Almaniya Mərkəzi Bankının da həmçinin. Bundan əvvəl, SOCAR-ın yeni inzibati binasının inşası üçün də büdcədən böyük məbləğlər ayrılmışdı. O cümlədən olimpiya kompleksləri və bir çox başqa heç bir gəlir gətirməyən infrastruktur layihələrinin adlarını çəkmək olar. Bu komplekslər vətəndaşlar üçün əlavə vergi yükü yaratmaqdan başqa heç nəyə xidmət etmir. Tələbin aşağı olması səbəbindən bir çox idman kompleksləri istifadəsiz qalaraq heç öz xərclərini belə qarşılaya bilmirlər. Bir infrastruktur layihəsi həyata keçirilən zaman xərclənən vəsaitin alternativ faydalarını da nəzərə almaq lazımdır. Bu vəsaitin təhsil və səhiyyə kimi sahələrə yönləndiriləcəyi təqdirdə əldə ediləcək alternativ faydanın daha çox yüksək olacağını düşünürəm. Məsələn, 2023-cü ilin dövlət büdcəsindən poliklinikalar və ambulatoriyalara cəmi 1.802.885 manat, həmçinin sosial təminat sahəsinə 5.640.585 manat, iqtisadi və kommersiya fəaliyyəti üçün 56.020.965 manat vəsait ayrılıb. Bundan əlavə, inzibati binalar olsun və ya idman kompleksləri olsun və bənzər təsisatların inşasında istifadə olunan materialların tamamına yaxın hissəsi xaricdən idxal olunur, hətta işçi qüvvəsi də xaricdən cəlb olunur. Bununla da nə qədər valyutanın xaricə axdığını gözardı etmək olmaz”.

**İqtisadçı-ekspert Natiq Cəfərli də mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini bildirib. O deyib ki, dövlət qurumları bahalı, müasir inzibati binaların tikintisinə deyil, göstərilən xidmətin, görülən işlərin effektivliyinə əhəmiyyət verməlidir:** “Fikrimcə, belə bahalı layihələr, böyük büdcəli layihələr izafi xərcdir. Bəziləri düşünə bilərlər ki, müasir binadır, şəhərin gözəlliyinə xidmət edəcək, estetikadır, ölkənin inkişaf göstəricisidir və sair. Təbii ki, belə yanaşanlar az deyil. Lakin mənim fikrim bundan ibarətdir ki, dövlət və hökumət binalarının özü deyil, orada görülən iş effektiv olmalıdır. Ümumiyyətlə, uzun zaman müşahidə olunan bir tendensiya var ki, böyük şirkətlərin paytaxtda böyük və bahalı binaları tikilir. Mərkəzi Bank üçün də belə bir binanın tikilməsi barədə illər öncə qərar qəbul olunub. Həmin binanın smeta dəyərinin artmasının yeganə obyektiv səbəbi ondan ibarətdir ki, 2020-ci ildən bu yana dünyada çox kəskin inflyasiya baş verib. Nəticədə hər şeyin qiyməti qalxıb, o cümlədən tikinti materiallarının, avadanlıqların və sairin. Azərbaycan bu tikinti materialları və avadanlığı özü istehsal etmir. Söhbət adi tikinti materiallarından da getmir. Müasir binaların tikintisi zamanı yüksək keyfiyyətli konstruksiyalardan, texnoloji yeniliklərdən istifadə olunur. Bu materiallar isə xaricdən alınır və ölkəmizə gətirilir. Təbii ki, kənardan ölkəyə gətirilən məhsulun da qiyməti yüksək olur. Sadəcə, məsələ budur ki, böyük tikinti layihələrinin icrasında şəffaflıq təmin olunmalıdır. Müvafiq qurumlar, əlaqədar orqanlar zaman-zaman ictimaiyyətə doğru-düzgün məlumat çatdırmalıdır. Smeta xərclərinin artmasının səbəbləri, buna təsir edən amillər və sair ictimaiyyətə açıqlanmalıdır”.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

# Boşananda bu qədər rüsum ödəyəcəksiniz



**Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün dövlət rüsumunun dərəcələrində dəyişiklik edilib.**

Bu, “Dövlət rüsumu haqqında” Qanuna dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının qeydə (qeydiyyat “Elektron məhkəmə” alınmasına informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən şəhadətnamənin verilməsinə) görə (qətnamədə dövlət rüsumunun tərəflərdən hansının ödəməli tərəfdən) olduğu göstərilmədikdə birinci müraciət etmiş tərəfdən) 15 dollar dövlət rüsumu ödəniləcək.

# Xəzərdə süni torpaq sahələrinin yaradılması haqda qanun təsdiqləndi



**Prezident İlham Əliyev “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Qanunu təsdiqləyib.**

Qanun ölkə konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərinə uyğun olaraq, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimləyir, süni torpaq sahələrinin yaradılmasının təşkilati və hüquqi əsaslarını və süni torpaq sahələrindən istifadənin, o cümlədən süni torpaq sahələrində tikinti aparılmasının xüsusiyyətlərini müəyyən edir.

Bundan başqa, dövlət başçısı qanunun tətbiqi barədə fərman imzalayıb. Fərmana əsasən, qanunla bağlı Prezident, Nazirlər Kabineti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Dövlət Neft Şirkəti və “Azərişıq” ASC müəyyən səlahiyyətlərə malikdir.

Nazirlər Kabineti ölkə qanunlarının və Prezident aktlarının “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Qanuna uyğunlaşdırılması barədə təkliflərini üç ay müddətində hazırlayıb dövlət başçısına təqdim etməli, süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinə görə ödənilən icarə haqqının məbləğini bir ay müddətində təsdiq edib Prezidentə məlumat verməli, qanundan irəli gələn digər məsələləri həll etməlidir.

# Kasıblar taksidən düşdü, indi nə olacaq?

## Elməddin Muradlı: "Əvvəlki kimi ucuz taksi xidməti olmayacaq, üstəlik, azı 20-25 dəqiqə əvvəldən taksi sifariş etmək lazım gələcək"

**İyulun 1-dən ölkədə taksi fəaliyyəti ilə bağlı yeni qaydalar tətbiq olunacaq. Yeniliyin bu sahə ilə məşğul olanların sayını azaldacağı şübhəsizdir. İndidən vəziyyətin dəyişdiyini demək olar. Xüsusilə paytaxtda taksi xidməti göstərən avtomobillərin sayı azalıb. Qiymətin də iki dəfəyə yaxın bahalaşması müşahidə edilir. Təsadüfi hallarda hansısa istiqamətə 4 manatdan ucuz getmək mümkündür.**

Bakıda taksi xidməti göstərən avtomobillərə 1 km üçün təxminən 1 manat (təxminən 0,6 dollar) ödənilir. Bu sahənin araşdırması ilə məşğul olan şirkətlər təxminən orta qiymət çıxarıb. Göstərici ilə razılaşmaq olar. İstisna hallarda qiymət bir az baha və ya ucuz olur. Bəs hansı ölkələrdə taksi xidmətindən daha sərfəli şərtlərlə istifadə etmək olar?




Bızımyol.info yazır ki, taksi xidmətinin ən baha olduğu ölkə İsveçrədir. Məsələn, Sürixdə 1 km üçün azı 3,8 frank ödəmək lazım gəlir. Yəni bu şəhərdə hər kilometr müştərinin 7 manatını alır. İstənilən halda, ödəniləcək məbləğ 6,5 frankdan az olmamalıdır. Bu o deməkdir ki, müştəri 12 manatdan az məbləğə ümid etməməlidir.

Berlində start qiymət İsveçrədəki göstəricilərə yaxınlaşır. Amma hər kilometr orta hesabla 2,3 avroya başa gəlir.

Fransanın paytaxtı Parisdə taksi sürücülərinə 1 km üçün 1,93, İtaliyanın paytaxtı Romada 1,5 avro ödənilir.

Böyük Britaniyanın əsas şəhəri Londonda qiymət 2 funt sterlinqdir. Yəni 4 manatdan bir az çox.

Azərbaycanla, konkret Bakı ilə müqayisədə baha görünən yerlər çoxdur. Amma taksi xidmətinin ucuz olduğu ölkələr də az deyil.

Özbəkistanın paytaxtı Daşkənddə taksi xidməti Bakıdan azı iki dəfə ucuzdur. Vyetnamın paytaxtı Hanoyda da qiymətlər Bakıdan ucuz görünür.

Rusiyada qiymətlər, heç şübhəsiz, Azərbaycandan aşağıdır. Moskvada kilometri 0,45, Sankt-Peterburqda 0,56 sentə qət etmək mümkündür.

Azərbaycanda taksi xidməti qiymət baxımından indi faciəli günlərini yaşamır. Amma bu xidmət getdikcə sadə adamlar üçün əlçatmaz olmağa başlayır. Bakıdakı qiymətlər Finlandiyanın paytaxtı Helsinkiyə yaxınlaşırsa, deməli, vəziyyət yaxşı deyil. Hadisələrin gedişi göstərir ki, zamanla situasiya daha da mürəkkəbləşəcək.

**Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, taksi qiymətlərinin artması fonunda insanların taksiyə əlçatanlığı azalacaq:** "Bazar iqtisadiyyatı fonunda tələb-təklif formasından yanaşsaq, bu, təbii prosesdir. Çünki məlum məsələdir ki, heç kim baha qiymətə nəsə almaq istəmir. Amma istifadə edənlərin də 30 faizi məcburiyyətdən bu addımı atır. Çünki ictimai nəqliyyata güvəni qalmayıb, illər əvvəl onun necə bərbad vəziyyətdə olduğunu görüb, taksiyə üz tutub. Bu gün də ictimai nəqliyyatla bağlı heç bir irəliləyişin olmadığını görürük. Əgər vətəndaş bundan sonra taksidən də əlini üzməli olacaqsa, təbii ki, yenə də gedib özünə avtomobil almaq barədə düşünəcək. Taksilərlə bağlı aparılan islahatlar, qoyulan məhdudiyyətlər demək olar ki, Bakı şəhərində taksi sayının yarıya qədər azalmasına gətirib çıxarır. Bu günə qədər 18 min sayda taksi sertifikatdan keçib. Ehtimallara görə, bu rəqəm təxminən 30 min sayda dayanacaq. Əslində bu say Bakı şəhəri üçün kifayət qədər normaldır. Hətta bəzi hallara baxanda çoxdur. Bu həm də ictimai nəqliyyatın vəziyyəti ilə bağlıdır. Yəni nə zaman ictimai nəqliyyat inkişaf edəcək, metrostansiyaların sayı artacaq, o zaman taksilərin də sayı avtomatik olaraq azalacaq. Bunun üçün hər hansı qərara, qanuna ehtiyac olmayacaq".

**Ekspert taksi qiymətlərinin artmasından da danışıb:** "Qiymət məsələsinə gəldikdə, bunu daşıyıcı operatorlar, yəni şirkətlər müəyyənləşdirir. Ötən il dövlət tərəfindən onlara tövsiyə olundu ki, 2,50 manatdan aşağı qiymət olmasın, maksimal qiyməti isə özləri müəyyənləşdirsinlər. Amma hesab edirəm ki, bu da müəyyən dövr üçün keçərli olacaq. Çünki bəzi hallarda dövlətin bu məsələyə müdaxilə etməsinə ehtiyac var. Yəni fantastik qiymət artımına ehtiyac yoxdur, konkret qiymət müəyyənləşdirilməlidir. Bir müddət əvvəl müzakirələr gedirdi ki, hər km-ə 60-70 qəpik müəyyən edilsin və sairə. Sonradan bu müzakirələr kənarda qaldı, yalnız minimum qiymət müəyyənləşdirildi ki, ondan aşağı qiymət olmasın. Çünki bir vaxt oldu ki, insanlar evdən çıxıb, 200 metr qabağa gedib, mağazadan siqaret və sairə almaq üçün belə taksi sifarişi edirdi. Deyirdilər ki, "50-60 qəpik, nə yazırsa ödəyim, amma taksi ilə gedim". Minimum qiymət 2,50 manat müəyyənləşəndən sonra artıq bu kimi hallar kənarda qaldı, şəhərdə hərəkətlilik də nisbətən azaldı. Hesab edirəm ki, qiymətin tənzimləmək olar, amma qeyd etdiyim kimi, yalnız ictimai nəqliyyat inkişaf etdiyi təqdirdə. Hazırda təkcə Bakı şəhəri üçün 1800 yeni avtobusa ehtiyac var. Məlum olduğu kimi, yeni qaydalara əsasən ili 2009-cu ilə qədər olan taksilər fəaliyyət göstərə bilməyəcək. Yəni operatorlar artıq onları işə götürmür. Sürücü də "Prius"u 12 min manata almışdı, amma indi məcbur olub 20 min manata yeni avtomobil alır və haqlı olaraq da bildirir ki, "artıq 3 manata sərnişin daşımaq istəmirəm". Beləliklə də qiymət artımına görə nə sürücünü, nə də şirkəti qınamaq olur.

Lakin taksilər qiyməti birdən-birə 4-4,5 manat artırıblar. Doğrudur, qiymət artımı ilə bağlı rəsmi məlumat yoxdur, AYNA da, operatorlar da deyir ki, xəbərimiz yoxdur. Amma faktiki olaraq qiymətlər xeyli artıb, taksi xidməti göstərən avtomobillərin də sayı azalıb. Hesab edirəm ki, vəziyyət bir müddət belə davam edəcək, daha sonra taksi operatorları aralarında sağlam rəqabət rejiminə keçsələr qiymətlər bu formada qalmayacaq. Özləri də görürlər ki, müştəri itirirlər.

Beləliklə, artıq vətəndaşlar düşünməsin ki, düyməni basıb, sifariş edən kimi taksi qarşısına gələcək. Azı 20-25 dəqiqə əvvəl taksi məsələsini düşünmək lazım gələcək. Bu, normal haldır. Həmçinin əvvəlki qiymətlər də olmayacaq, əvəzində isə normal, təhlükəsiz, keyfiyyətli taksi xidməti görəcəyik".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Deputat qurban ətinin bahalaşmasından danışdı



Vahid Əhmədov

**"Ümumiyyətlə, Azərbaycanda ət istehsalı kifayət qədər aşağı düşüb. Ət istehsalı ilə əlaqədar olaraq müəyyən problemlər var. Biz xaricdən də ət idxal edirik, ola bilər ki, qiymət artımı buna görə olsun".**

Bunu Bakupost.az **millət vəkili Vahid Əhmədov** deyib. O, Qurban bayramı ərəfəsində hər il olduğu kimi ətin qiymətinin süni şəkildə qaldırıldığını bildirib:

"Hər il olduğu kimi Qurban bayramı öncəsi qiymətləri qaldırırlar. Bilirlər ki, insanlar qurban əti almağa məcburdur. Ona görə də sahibkarlar bu cür addımlar atırlar. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qiymət artımı ilə bağlı müəyyən monitorinqlər aparır. Amma buna baxmayaraq görürsən ki, yenə də sui-istifadə halları var. Çox təəssüf ki, Azərbaycanda bu artıq adi hala çevrilib. Hamımız azərbaycanlıyıq, ona görə çalışmaq lazımdır ki, insanlar qurbanlarını normal şəkildə alıb kəsə bilsinlər".

# Un 29 manat oldu - səbəb




**Son günlər Azərbaycanda unun qiymətində artım müşahidə olunur. Ötən ayla müqayisədə unun topdansatış qiymətində iki-dörd manat artım qeydə alınıb. Ölkədə hazırda 50 kiloqramlıq unun topdansatış qiyməti 27,40-29 manat aralığında dəyişir. Ötən ay isə bu rəqəm 24,60-26,70 manat idi.**

Bakupost.az açıqlamasında **iqtisad elmləri doktoru Əli Əlirzayev** unun qiymətinin artmasının müxtəlif səbəbləri olduğunu bildirdi:

"Unun qiymətində artım gözlənilirdi. Tələb ondan ibarətdir ki, bu, idxalyönümlü məhsuldur. Yəni biz onu xarici ölkələrdən gətiririk. Əslində bütün dünyada qiymət artımı var. Son illərdə Azərbaycanın buğdası artmır və buna görə də biz xaricdən buğda alırıq. Ümumiyyətlə, bazar iqtisadiyyatının qanunu belədir. Əgər hər hansı bir məhsulun qiyməti dəyişirsə, o demək deyil ki, məhsulu istehsal edən sevinməlidir. Ümumiyyətlə, unun, buğdanın istehsalı üçün kənd təsərrüfatı xərcləri artır və bu da bahalaşmaya səbəb olur. Əgər bir məhsulun qiyməti artırsa, o, mütləq dolayısı ilə digər məhsullara da təsir edəcək. Un istehsal edən sahibkar və yaxud da hər hansı bir xarici təsərrüfatçı əgər görsə ki, onun məhsulu xərcini ödəmir, aldığı məhsulların qiyməti artdığı üçün o da öz məhsullarının qiymətini artıracaq. Bu, bazarın qanunudur. Bütün dünyada bu proses gedir".

**İqtisadçının sözlərinə görə, dövlət bununla bağlı tədbirlər planı hazırlamalıdır:** "Dövlətin vəzifəsi odur ki, bu dəyişmələrin proqnozunu vermək yolu ilə qabaqcadan tədbirlər hazırlasın və yaxud da ki, gəlirləri artırsın. Qiyməti artan məhsulların, dövlətin və sahibkarın da gəlirləri artır. O gəlirlərin hesabına qiymət artımı onun hər səviyyəsinə təsir edir. Un elə bir məhsuldur ki, bütün məhsullara, əhaliyə təsir edir".

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

# “Kitabxanalarda oxucudan çox həşərat var”

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ildə ölkədə 2942 kütləvi kitabxana mövcud idisə, 2021-ci ildə 2 915, 2022-ci ildə kitabxanaların sayı 2913 olub. Eyni zamanda ölkədə uşaq kitabxanalarının sayında da azalma qeydə alınıb. Belə ki, 2018-ci ildə uşaqlar üçün 89 kitabxana fəaliyyət göstərirdisə, 2022-ci ildə müəssisələrin sayı 87-yə enib. Onu da deyək ki, ölkədə ən çox kitabxana sayı 1992-ci ildə qeydə alınıb. Həmin il ölkədə 4 909 kitabxana fəaliyyət göstərib.**

Bəs bu gün kitabxanaların vəziyyəti necədir? Kitab oxuyan varmı?

**“Qanun” Nəşriyyatının direktoru Şahbaz Xuduoğlu** Bizimyol.info xəbər portalına açıqlamasında bildirib ki, kitabxanaların vəziyyəti yaxşı deyil. Kitabxanaların sayı çox azalıb.

“Bir zamanlar 4 mindən çox kitabxana var idi. Azərbaycanda indi 2 minə yaxın kitabxana var. Onun da çox cüzi bir hissəsi işlək vəziyyətdədir. Yəni bizim kitabxanalar bizə "gəl-gəl" demir. Əksinə, kitabxana deyəndə göz önünə həşəratlar gəlir. Bir də yanından günorta vaxtı keçəndə soğança qoxusu vurur. Kitabxanalarımız təəssüf ki, belədir", - deyən Şahbaz Xuduoğlu bildirib ki, kitabxanalara çox böyük investisiya qoyulmalıdır.



**Naşir qeyd edib ki, Azərbaycan kitabxanaları yenilənməlidir:** “Bəlkə də beynəlxalq təşkilatları cəlb eləmək olar. Humanitar bir missiya ilə bu kitabxanalar yenilənməlidir. Məsələn, hər rayonda çox böyük və gözəl tikilmiş Heydər Əliyev mərkəzləri var. Məncə, onların nəzdində kitabxana yaratmaq olar. Amma o kitabxanalar müasir tələblərə cavab verməlidir ki, gəncləri özünə cəlb edə bilsin. Cəlb olunması üçün orada kitabla yanaşı, əyləncəli bir mühit də olmalıdır. Müasir texnika ilə təmin edilməlidir. Eyni zamanda da müasir kitablar olmalıdır. Kitabları əlinə götürəndə hamısı adamın əlindən tökülür. O qədər köhnədirlər ki, nəşriyyatlardan 5-6 kitab almaqla kitabxana düzəltmək mümkün deyil, buna böyük investisiya qoyulmalıdır”.

Şahbaz Xuduoğlunun sözlərinə görə, gərək 3-4 milyonluq kitab alınsın ki, heç olmasa Azərbaycan kitabxanalarında kitabların rəngi dəyişsin. Əks halda, bu şəkildə kitabxanalar hər il daha da geri gedir.

“Hər kitabxanada təsəvvür edin ki, 5-6 yeni kitab var, qalanları çox köhnədir. Onu heç insan əlinə götürmək istəmir”, - deyə Şahbaz Xuduoğlu vurğulayıb.

# Mənzil bazarında “xruşşovka”lar “su qiymətinə” düşdü...



**İnsanlar arasında “xruşşovka” kimi tanınan və sovet dövründən qalmış keçmiş beşmərtəbəli binalardakı mənzillərin kütləvi satışı müşahidə olunur. Elan saytlarına nəzər yetirəndə görmək olur ki, köhnə mənzillər bazar qiymətinə uyğun satışa çıxarılır.**

Təbii ki, həmin mənzillərin alıcıları da az deyil. Həmin mənzillərin kütləvi satışına səbəb kimi o binaların tezliklə sökülməsi qeyd edilir. Bu da insanlarda müəyyən panikaya və psixoloji narahatlığa səbəb olub.

Maraqlıdır, həmin binalarda mənzillərin kütləvi satışa çıxarılması mənzil bazarına necə təsir edəcək?

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı** “Bakı-Xəbər”ə açıqlamasında qeyd etdi ki, əmlak bazarında yaşanan hazırkı vəziyyət qiymətlərə təsir etməyəcək: “Çünki həmin mənzillərin alıcı kütləsi o insanlardır ki, onlar ucuz olduğu üçün investisiya məqsədilə mənzilləri alırlar. Alınan o mənzil ya kirayə verilir, ya da müəyyən məqsəd üçün istifadə olunur. Mənzili alanlar bilir ki, müəyyən müddət sonra həmin binalar söküləcək. Qarşılığında isə vətəndaşa ya hansısa binadan ev veriləcək, ya da müəyyən məbləğdə pul. Istər-istəməz bu hal vətəndaşa iqtisadi baxımdan sərfəlidir. Yəni belə binalarda yerləşən mənzillərin alıcıları da yatırımçılar olur. Həmin şəxslər köhnə mənzil sökülüb yerində təzəsi tikildikdən sonra təzə mənzili satışa çıxarır və iki dəfə baha satır. Bundan əlavə, çoxmərtəbəli binalar tikiləndə kirayə pulu da verirlər ki, bu da əlavə qazancdır”.

**Ekspert hesab edir ki, təklifin çoxluğu bazara təsir etmir. Yeni tikililərdə qiymət azalmayana qədər köhnə tikililərdə qiymət dəyişikliyi gözlənilməməlidir:** “Onu da deyim ki, vətəndaşlar həmçinin artıq köhnə binaların yerinə daha çox yeni binalara üstünlük verir. Bu isə köhnə binalardakı mənzillərin kütləvi satışına səbəb olur və yeni binalardan mənzillərin alınması ilə nəticələnir”.


# “Nar”ın “Balloon Festival” müsabiqəsində göydən hədiyyələr yağacaq!

**Sərfəli təklifləri ilə regionlara daha yaxın olmaq üçün “Nar” bu yayın ən çox gözlənilən tədbirlərindən biri olan “Balloon Festival”ın əsas tərəfdaşıdır. İyunun 8-9-da Şamaxı rayonunda keçiriləcək festivalla əlaqədar olaraq, “Nar” dəyərli hədiyyələrlə dolu “Balloon Festival” müsabiqəsini elan edir.**

Müsabiqə 5-9 iyun tarixlərində “Nar”ın instagram ink səhifəsində keçiriləcək. Yarışda iştirak edənlər finala keçmək üçün festivala özəl hazırlanmış oyunda minimum 30 xal toplamalıdır. Keçid balını toplayanlar arasından təsadüfi üsulla 3 nəfər qalib elan ediləcək. 1-ci yerin qalibinə “iPhone 15 Pro”, 2-ci yerin sahibinə “JBL” qulaqlıq və 3-cü yeri tutan şəxsə isə 100 azn dəyərində hədiyyə kartı veriləcək. Müsabiqənin şərtləri barədə daha ətraflı tanış olmaq üçün buraya ttps://www.instagram.com/reel/C71YiH2thKa/?igsh=MTY1eWk1dWV1a2YzeA== daxil ola bilərsiniz. Hədiyyəli müsabiqədən əlavə, “Nar” bu festivalda iştirakçılar üçün maraqlı süprizlər də təqdim edəcək.

Qeyd edək ki, “Nar” festivalları, musiqi və idman tədbirlərini müştərilərinə daha da yaxın edərək onlar üçün maraqlı istirahət imkanları yaradır. “Nar”ın dəstəyi ilə həyata keçirilən layihələr haqqında ətraflı məlumatı nar.az ttps://www.nar.az/senin-ucun/xeberler?page=1&category=Layih%C9%99l%C9%99r saytından əldə etmək mümkündür.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


# Rekord istilər gözlənilir



**ABŞ Milli Okean və Atmosfer Administrasiyasının proqnozlarına görə, El Nino bitdikdən və bir neçə aylıq neytral şəraitdən sonra yayın sonunda La Ninanın başlaması gözlənilir. Bu fenomen bütün dünyada temperaturun artmasına səbəb olur. La Nina planet üçün daha soyuq hava şəraiti deməkdir. Bununla belə, alimlər xəbərdarlıq edirlər ki, iqlim dəyişikliyinin güclü təsiri səbəbindən bu dövrdə temperatur rekordları davam edə bilər.**

İyunun əvvəlindən ölkənin bir çox rayonlarında da havanın temperaturu yüksəlib. Temperaturun 30 dərəcəyə yaxınlaşması ilə yay artıq sürətlə yaxınlaşır. Mütəxəssislər xəbərdarlıq edirlər ki, El Nino bitdikdən və iqlim dəyişikliyinin güclü təsirlərindən irəli gələn La Nina başlayandan sonra rekord temperaturların davam edəcəyi gözlənilir.

Ekoloq Ercan Çelik Bizimyol.info xəbər portalına açıqlamasında bildirib ki, Sakit okeanda meydana gələn El Nino okeanların ilk növbədə sahilyanı ərazilərində və sonra hər yerdə temperaturun yüksəlməsinə səbəb olur. La Nina bütün dünya üçün daha soyuq hava şəraiti deməkdir. Bu iki hadisə arasında keçid dövründə neytral, yəni təbii hava hadisələri fəaliyyət göstərir: “El Nino və La Nina adətən 9 ilə 12 ay arasında davam edir, lakin bəzən daha uzun sürə bilər. El Nino keçən ilin iyununda başlamış və bu ilin aprelində sona çatmışdır.

El Nino bütün dünya üçün ekstremal, La Nina problemli hava hadisəsidir. La Nina zamanı da yüksək temperatur rekordları müəyyən edilə bilər. Biz indi La Ninaya keçəcəyik. Yəqin ki, bunu yayın sonu, sentyabrın əvvəlində görəcəyik. La Nina orta temperaturun azalması deməkdir. La Ninanın iyun-avqust aylarında baş verməsi ehtimalı 50 faizdir. El Ninonun təsirləri bütün şimal yarımkürəsində yay boyunca davam edəcək". Ekoloq bildirib ki, La Ninanın qışın əvvəlində daha çox olacağı gözlənilir.

Ekspert bildirib ki, iqlim dəyişikliyinə görə temperaturun artmağa davam edəcəyi gözlənilir. Yəni dəniz suyunun temperaturunda çox da böyük normallaşma müşahidə edilməyəcək.

Ercan Çelik vurğulayıb ki, El Nino zamanı istiləşmə tendensiyası davam edəcək.

YENİ MÜSAVAT
N 99 (8472) 7 iyun 2024

# Yatırımlar Bakıya, yeni iş yerləri Bakıda, bəs regionlar?

## Ölkə üzrə əsas kapitala yatırılan investisiyaların həcminə baxdıqda regionlarla Bakı arasındakı fərqi aydın görmək mümkündür

**Azərbaycanda iqtisadiyyatın əsas hissəsinin Bakı və Abşeron yarımadasında cəmləşdiyi heç kimə sirr deyil. Ölkə iqtisadiyyatının demək olar ki, bütün sahələri üzrə rəsmi statistikaya nəzər yetirdikdə, az qala bütün iqtisadiyyatın Bakı və onun ətrafında təmərküzləşdiyi açıq görünür.**

Bugünlərdə **iqtisadçı-ekspert Natiq Cəfərli** regionlarla paytaxt arasındakı disproporsiyanın daha bir göstəricisini qeyd edib: "2024-cü ilin ilk 3 ayı, 1-ci rübü ilə bağlı bəzi statistik məlumatlar açıqlanıb - yeni iş yerləri ilə bağlı rəqəmlər diqqətimi çəkdi. 2024-cü ilin birinci rübü ərzində ölkədə 22,5 min yeni iş yerləri açılıb və bu iş yerlərinin 80 faizi (!!!), yəni hər 10 iş yerindən 8-i Bakının payına düşür. Soruşsanız ki, bəs işğaldan azad edilmiş regionlarımızda nə qədər iş yeri açılıb, onu da deyim - 2024-cü ilin I rübündə cəmi 292 yeni iş yeri açılıb".

Rəsmi statistikaya əsasən, 2022-ci ildə ölkədə məşğul kimi qeydə alınan 4,9 milyon nəfərin yalnız 1,1 milyon nəfəri Bakıda, qalanları rayonlardadır. Ölkədə əmək müqaviləsi ilə çalışan muzdlu işçilərin regional bölgüsü açıqlanmasa da, yeni yaranan iş yerlərinin sayındakı nisbət muzdlu işçilərin də 80 faizinin Bakı və ətrafında çalışdığından xəbər verir. Məşğul əhalinin 75 faizinin regionlarda göstərilməsi isə sırf kənd təsərrüfatında məşğul kimi qeydə alınan şəxslərlə bağlıdır. Məlumdur ki, Azərbaycanda pay torpağı olan bütün əhali kənd təsərrüfatında məşğul əhali kimi qeydə alınır.

Azərbaycanda nəinki yeni iş yerləri, elə onları yaradan sahibkarlıq subyektləri də Bakı və Abşeronda cəmləşib. Sahibkarlıq subyektlərinin fəaliyyət sahəsi üzrə bölgüsündə kənd təsərrüfatı heç 10 faiz belə paya malik deyil. Rəsmi statistikaya əsasən Azərbaycanda kommersiya təşkilatlarının ümumi sayında ən çox - 92,2 faiz paya mikrosahibkarlıq subyektləri sahibdir. Onların ölkə üzrə ümumi sayı 166 890-a çatır. Mikrosahibkarlıq subyektlərinin ən çox fəaliyyət göstərdiyi sahə ticarət; nəqliyyat vasitələrinin təmiridir - burada ölkə üzrə belə sahibkarlıq subyektlərinin 34,7 faizi - yaxud 57 842-si məşğuldur. Ondan sonra 15949 subyektlə tikinti, 12 723 subyektlə peşə, elmi və texniki fəaliyyət, 11 358 subyektlə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq və sair sahələr gəlir.

2024-cü il yanvarın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 5,4 faizini kiçik sahibkarlıq subyektləri (9709) təşkil edib. Onların da onların əsas hissəsi ticarət; nəqliyyat vasitələrinin təmiri (31,4 faiz), tikinti (13,1 faiz), emal sənayesi (10,3 faiz) və peşə, elmi və texniki fəaliyyət (7,3 faiz) sahələrində fəaliyyət göstərir.

Qeyd olunan dövrə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 2,0 faizini orta sahibkarlıq subyektləri (3587) təşkil edib. Orta sahibkarların da əsas hissəsi ticarət; nəqliyyat vasitələrinin təmiri (30,2 faiz), tikinti (15,7 faiz), emal sənayesi (11,5 faiz) və nqliyyat və anbar təsərrüfatı (5,0 faiz) sahələrində yaradılıb.



Ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının cəmi 0,4 faizini iri sahibkarlıq subyektləri təşkil edir. Sahələr üzrə bölgü nisbəti az fərqlidir: bu subyektlərin əsas hissəsi ticarət; nəqliyyat vasitələrinin təmiri (22,6 faiz), emal sənayesi (15,9 faiz), tikinti (12,6 faiz) və nəqliyyat və anbar təsərrüfatı (6,9 faiz) sahələrində fəaliyyət göstərir.

Regional bölgüyə nəzər saldıqda, aydın olur ki, mikrosahibkarlıq subyektlərinin 68,1 faizi Bakıda, 6,7 faizi Abşeron-Xızı, 3,8 faizi Lənkəran-Astara, 2,9 faizi Mil-Muğan, qalanları isə digər iqtisadi rayonlarda yaradılıb.

Kiçik sahibkarlıq subyektlərinin 69,9 faizi Bakıda, 6,5 faizi Abşeron-Xızı, 2,9 faizi Gəncə-Daşkəsən, 2,7 faizi Mərkəzi Aran, qalanları isə digər iqtisadi rayonlarda, orta sahibkarlıq subyektlərinin 66,0 faizi Bakıda, 6,5 faizi Abşeron-Xızı, 3,3 faizi Şəki-Zaqatala, 3,2 faizi Mərkəzi Aran, qalanları isə digər iqtisadi rayonlarda, iri sahibkarlıq subyektlərinin 79,1 faizi Bakıda, 7,7 faizi Abşeron-Xızı, 2,3 faizi Gəncə-Daşkəsən, 2,1 faizi Şirvan-Salyan, qalanları isə digər iqtisadi rayonlarda yaradılıb.

Müxtəlif regionlarda yaradılmalarına rəğmən, reallıqda ümumi sahibkarlıq subyektlərinin 80 faizə yaxınının Abşeron yarımadasında fəaliyyət göstərdiyini rahatlıqla söyləmək olar.

Ölkə üzrə əsas kapitala yatırılan investisiyaların həcminə baxdıqda regionlarla Bakı arasındakı fərqi aydın görmək mümkündür. 2022-ci ildə ölkə üzrə ümumi investisiyaların həcmi 17,9 milyard manata yaxın olub ki, bunun da 9,5 milyard manatı - 53 faizi sırf Bakının payına düşür. Regionlardan yalnız Qarabağ iqtisadi rayonunda 1,8 milyard manatlıq investisiya qoyuluşu var ki, bu da işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlıdır.

Ölkə üzrə investisiya qoyuluşundakı bu fərqin əsas səbəbi də sahibkarlıq subyektlərinin Bakı və Abşeronda cəmləşməsidir. Bunun nəticəsidir ki, regionlara yatırılan investisiyaların 80 faizdən çoxunu dövlət investisiyaları təşkil edir. Regionlar üzrə investisiyaların artım-azalma dinamikasını bölgələrdə həyata keçirilən dövlət investisiya layihələri müəyyən edir. Məsələn, ötən il ümumilikdə ölkəyə yatırılan investisiyaların məbləği 11 faiz artıb. Amma bəzi rayonlarda yatırımlar artsa da, digər rayon və şəhərlərdə kəskin azalmalar var. Fed.az-ın hesablamalarına əsasən, 73 rayondan 42-də investisiyaların artımı, 31 rayon və şəhərdə isə azalma baş verib. İnvestisiyaların azaldığı rayonlarda bu dəyişikliyin səbəblərini müxtəlif amillərlə izah edirlər, bəzi hallarda isə ümumiyyətlə izah edə bilməyiblər. Məsələn, yatırımların 28 dəfə azaldığı Xızı Rayon İcra Hakimiyyətində rayona yatırılan investisiyaların belə kəskin azalmasının səbəbini izah edə bilməyiblər. Qurumdan bildirilib ki, investisiyaların yatırılmasında sahibkarların özləri maraqlı olmalıdır. Şabran Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Fariz Məlikovun sözlərinə görə isə rayonda yatırımların 3 dəfə azalması son iki-üç ildə əlverişsiz hava şəraitinin kənd təsərrüfatında mənfi təsiri ilə bağlıdır. Havaların dəyişməsi tərəvəzçilik sahəsində özünü daha qabarıq göstərir, bu da yatırımların azalmasına səbəb olub.

Siyəzən Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi Eldar Muradovun sözlərinə görə, rayona yatırımların 2,7 dəfə azalması dövlət layihələrinin başa çatması ilə əlaqədardır. Belə ki, Bakı-Rusiya sərhədi avtomobil yolunun tikintisi zamanı yolun Siyəzən rayonuna düşən hissəsinə ayrılan vəsait rayona yatırım kimi, qeyd edilib və 2022-ci ildəki rəqəmlərdə özünü göstərib. Yolun istifadəyə verilməsi ilə 2023-cü ilin sonunda artıq göstəricilərdə kəskin azalma qeydə alınıb.

Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov isə Lerik rayonu üzrə 2,6 dəfəlik azalmanı "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın Lerik rayonuna düşən investisiya layihələrinin azalması ilə əlaqələndirib. Onun sözlərinə görə, yeni Dövlət Proqramında yol tikintisi, yaşayış məntəqəsinin qazlaşdırılması kimi məsələlərin olması ilə investisiyaya yatırımlarda artımın olması gözlənilir.

Qobustan Rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Məharət Əkbərov qeyd edib ki, 2022-ci ildə Qobustan rayonunda iki məktəb tikintisi, bir yaşayış məntəqəsinin qazlaşdırılması həyata keçirilib və rabitə sahəsində investisiya yatırımı olub. 2023-cü ildə isə sadəcə bir yaşayış məntəqəsi qismən qazlaşdırılıb. Dövlət investisiyalarının həcminin azalması illik müqayisədə öz təsirini göstərib və rayonda yatırımların 5,5 dəfə azalmasına səbəb olub.

Astarada da investisiyaların azalması dövlət layihələrinin başa çatması ilə bağlıdır. Rayon icra hakimiyyəti başçısının müavini - sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Aqil Əhmədov bildirib ki, 2023-cü ildə rayonda yatırımların azalmasının səbəbi nəqliyyat və anbar təsərrüfatına yönəldilən investisiyanın həcminin 18,4 milyon manat azalması, eləcə də Bakı-Ələt-Astara İran avtomobil yolunun tikintisinin başa çatmasıdır. Amma azalma təkcə yolla bağlı deyil. 2023-cü ildə rayonda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 6,5 milyon manatlıq azalma olub. Yəni bu sahədə yeni qurulan müəssisələr üçün əsas kapitala investisiya 2022-ci ildə başa çatıb. Bundan başqa, Astarada 2023-cü ildə sənaye sahəsində də 1,9 milyon manat azalma olub.

Yatırımların 3,1 dəfə azaldığı Sədərək rayonunda da azalma dövlət işlərinin azalması ilə bağlıdır. Rayon icra hakimiyyətindən bildirilib ki, 2022-ci ilin sonunda və 2023-cü ilin əvvəllərində içməli su və kanalizasiya sistemləri ilə bağlı işlər aparılırdı. Lakin 2023-cü ildə həmin işlər dayandırıldı. Sonradan işlər açıq tender və kotirovka sorğusu ilə keçirilməyə başladı.

Göründüyü kimi, regionlarda dövlət layihəsi olmayanda investisiya layihəsi da minimuma düşür. Çünki özəl sektor, əsasən də kiçik və orta sahibkarlar regionlarda investisiya qoymaqda maraqlı deyillər.

Məlumdur ki, məşğulluğun təminatında bütün dünyada aparıcı yer kiçik və orta sahibkarlığa məxsusdur. Azərbaycanda belə sahibkarlıq subyektlərinin ÜDM-də payı 2022-ci ildə 17-18 faiz civarında olub. Azərbaycan hökuməti 2030-cu ilədək bu payı 35 faizə çatdırmağı hədəfləyir. Bu məqsədlə mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək mexanizmləri hazırlanır. Bununla bağlı fevral ayında Azərbaycan Nazirlər Kabineti "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısı"nı təsdiqləyib. "Yeni Müsavat" xəbər verir ki, qərarla Sənaye, Kənd təsərrüfatı, İnformasiya və rabitə, Turizm, Tikinti, Nəqliyyat və Ticarət sahələri mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələri kimi təsdiqlənib.

**Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 99 (8472) 7 iyun 2024

M a y

## Bunları bilirsinizmi?

* Barmaq izləri kimi hər insanın özünəməxsus dil izi də var.
* Betxoven son əsərini kar halda bəstələyib.
* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib.
* İnsan orqanizmindəki bütün damarların uzunluğu 15 min km-dir.
* Bir futbolçu topa hər dəfə başı ilə vuranda, beynində min hüceyrə ölür.
* İnsanın baçında orta hesabla 30.000-100.000 ədəd saç var. Hər gün onlardan 100-ü tökülür.
* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir
* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır.
* Qədim Çində valideynlərin ad günündə verilən ən yaxşı hədiyyə tabut hesab olunurdu.
* Günəş sisteminə daxil olan bütün planetləri bir tək Yupiterin içinə sığdırmaq mümkündür.
* Britaniya kraliçasının imperiya tacında düz 1783 brilyat qaş düzülüb. Onların arasında ən məşhuru 309 karatlıq "Afrika ulduzu»dur.
* Heç bir kağız vərəqini yeddi dəfədən artıq bərabər qatlamaq mümkün deyil.
* Kişilər qadınlara nisbətən üç dəfə çox intihar edirlər. Ancaq qadınlar kişilərdən üç dəfə artıq intihar cəhdi edirlər.
* Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152 792 poçt şöbəsi fəaliyyət göstərir.
* 1950-ci ildə Çində orta insan ömrü 35 il olduğu halda, 2000-ci ildə bu rəqəm 70-ə çatıb.
* 39-cu ABŞ prezidenti Cimmi Karter dəqiqədə 2000 söz sürətlə oxumağı bacarırmış.



## Dünyada milyonçuların sayı artır

**Beynəlxalq konsaltinq şirkəti "Capgemini" 2023-cü il üçün dünyada milyonçuların sayı və onların ümumi sərvətləri ilə bağlı Dünya Sərvət Hesabatını açıqlayıb. Şirkətin hesablamalarına görə, zəngin insanların sayı keçən il 5,1% artaraq 22,8 milyon nəfərə çatıb. Onların ümumi sərvəti də 4,7% artaraq 86,8 trilyon dollar təşkil edib. Son bir ildə rifahın ən əhəmiyyətli artımı Şimali Amerikada, ən pis vəziyyət isə Afrikada müşahidə olunub.**

Qeyd olunub ki, əgər 2022-ci ilin sonunda geosiyasi gərginlik və iqtisadi qeyri-sabitlik səbəbindən milyonçuların ümumi sərvəti 3,6%, milyonçuların sayı isə 3,3% azalıbsa, 2023-cü ildə artım nəinki bərpa olunub, həm də rekord həddə çatıb.

## "Apple" robotları köhnə "iPhone"ları məhv edir

**"Apple" şirkəti smartfonların təkrar emal edilməsi üçün yeni robot təqdim edib. Şirkətin Texas ştatının Ostin şəhərindəki ABŞ zavodlarından birinə baş çəkən jurnalistlər köhnə "iPhone"ları təkrar emal edən robotlarla tanış olublar. Həmçinin media nümayəndələrinə smartfonu 18 saniyəyə tamamilə sökə bilən yenilənmiş "Daisy" robotu nümayiş etdirilib. Qeyd edək ki, əvvəllər robotlar smartfonun komponentlərinin təkrar istifadə oluna bilməsi üçün işlənmiş "iPhone"ları diqqətlə sökürdülər. İndi isə "Apple" siyasətini dəyişib. Hazırda robotlar qadcetləri məhv edir, cihazları sözün əsl mənasında parçalayır və komponentlərə ayırırlar.**

# Kökəlməmək üçün dondurmanı necə yeməli?



**"Dondurmanın tərkibində lif çox azdır, lakin zülal, yağ və karbohidratlar çoxdur, ona görə də dondurma kökəlməyə səbəb olur. Bunun qarşısını almaq üçün desertə meyvə əlavə etmək və ya dondurmadan əvvəl meyvə yemək lazımdır".**

Bu barədə diyetoloq Nuriya Dianova danışıb. "Dondurmadan əvvəl bir az meyvə yesəniz, desertə lif əlavə olunacaq və daha uzun müddət tox qalacaqsınız. Arıqlama zamanı bunu nəzərə almaq vacibdir. Əgər artıq çəkiniz yoxdursa, hər gün bir dondurma yeyə bilərsiniz. Əgər əlavə çəkiniz varsa, həftədə bir dəfə dondurma yemək kifayət edəcək", - deyə Dianova izah edib. Dondurma seçərkən qatqısız və cemsiz adi dondurmaya üstünlük vermək lazımdır, beləliklə, siz qida rasionunuzdan artıq şəkəri xaric etmiş olarsınız.

# Yaddaş gücləndirici dərmanlar qəbul etməyin, çünki...



**İmtahanda uğur qazanmaq üçün həm abituriyentlər, həm də tələbələr yaddaş gücləndirici dərmanlara üstünlük verirlər. Bu tendensiya son vaxtlar daha da artıb. Abituriyentlərlə yanaşı bəzi valideynlər də övladlarına belə dərmanlar alırlar. Əczaçılar bildiriblər ki, yaddaş gücləndirici dərmanlara tələbat artıb. Ekspertlər isə bununla bağlı xəbərdarlıq edirlər. Belə ki, yoxlamadan keçmədən bu dərmanların istifadəsi bir çox problemlərə yol aça bilər. Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Zakir Quliyev isə bildirib ki, mikroelement, mineral vitamin çatışmazlığı, xroniki yorğunluq, stress xəstədə yaddaş probleminə gətirib çıxarda bilir:**

"Bəzi insanlar isə diqqətini toplaya bilmədiyindən bunu yaddaş problemi kimi qələmə verirlər. Bu zaman bəzən psixotrop dərmanlar belə qəbul edilir. Bu da bəzilərində sonradan asılılıq yaradır. Yüksək dozada qəbul edildikdə isə gənclərdə daha ağır fəsadlara gətirib çıxara bilər. Belə problemi olanlar mütləq şəkildə həkimə müraciət etməlidirlər".

## Ötən ayın ən güclü smartfonları müəyyən edilib

**"AnTuTu" bençmarkının tərtibatçıları beynəlxalq bazarda mövcud olan "Android" smartfonlarının may ayı üzrə reytinqini dərc ediblər. Yeni qlobal reytinqin lideri "Snapdragon 8 Gen 3" flaqman çipi əsasında hazırlanmış "Asus ROG Phone 8 Pro" oyun smartfonu olub ki, onun AnTuTu bençmarkında 100 min test əsasında orta balı 2,11 milyon bal təşkil edib. Ondan sonra geymer smartfonu "Red Magic 9 Pro" (2,07 milyon) və "iQOO 12" (2,03 milyon) gəlir. Üstəlik, "Snapdragon 8 Gen 3", biri istisna olmaqla, bütün smartfonların səmərəli işinə cavabdehdir.**

Dördüncü yerdən altıncı yerə "Xiaomi 14 Ultra" (1,95 milyon), "Xiaomi 14" (1,93 milyon) və "OnePlus 12" (1,84 milyon) qərarlaşıblar. Yeddinci yeri bençmarkda orta balı 1,79 milyon bal təşkil edən flaqman "Samsung Galaxy S24 Ultra", səkkizinci yeri isə "Honor Magic6 Pro" (1,62 milyon) tutub. Əsas zirvəni xüsusi "Exynos 2400" çipi ilə "Samsung Galaxy S24+" (1,61 milyon) və "iQOO Neo9" (1,59 milyon) tamamlayır.

## Tez-tez əsnəmək xəstəlik əlaməti ola bilər: diqqətli olun



**Səhər oyandıqdan sonra və ya yatmazdan əvvəl əsnəmək normal olsa da, gün ərzində davamlı əsnəmək ciddi problemlərin əlaməti ola bilər. Kifayət qədər yuxu yatan birinin əsnəməyə davam etməsi yuxu pozğunluğunun əlaməti hesab olunur. Davamlı əsnəmək təkcə yuxu pozğunluğu deyil, həm də oksigenin beyinə çatmasına mane olan yuxu apnesi və ürək-damar xəstəlikləri kimi xəstəliklərin əlaməti və göstəricisidir.**

Ard-arda əsnəyən insanlarda psixoloji problemlərdən tutmuş ürək xəstəliklərinə qədər bir çox xəstəliyin əlaməti olaraq şərh edilə bilər. Yuxu apnesi xəstələri səhərlər yorğun oyanırlar, kifayət qədər yata bilmirlər, işdə daim yatmağa meyllidirlər. Konsentrasiyada çətinlik, unutqanlıq və tez əsəbləşmə əlamətləri müşahidə olunur. Yuxu apnesi olan insanlar avtomobilin idarə edərkən yuxya gedə və yol qəzalarına səbəb ola bilər.

## Axşam yeməyindən imtina niyə təhlükəlidir?

**Şam yeməyinin qəbulu dayandırıldıqda, təhlükəli xəstəliklərin inkişafı üçün zəmin yaranır. Səhər, nahar və ya şam yeməyini atlatmaq, sağlamlığınız üçün zərərlidir. Həkim-dietoloq Oksana Dmitreyevanın sözlərinə görə, ən təhlükəlisi özünüzü axşam yeməyindən məhrum etməkdir.**

"İdeal olaraq, yatmazdan 2-3 saat əvvəl yemək lazımdır. Daha gec olarsa, bədənin qida miqdarını emal etməyə və istirahətə uyğunlaşmağa vaxtı olmaya bilər. Bu o deməkdir ki, kökəlmək riskləri artır. Boşqabdakı yeməkdən asılı olmayaraq, gec şam yeməyi, kortizol və melatonin istehsalının azalması da daxil olmaqla bir sıra metabolik dəyişikliklərə səbəb olur.

Çox gec yemək avtonom sinir sisteminin fəaliyyətini pozur, qaraciyər, əzələ və yağ toxuması kimi periferik toxumalarda insulinə həssaslığa və mədəaltı vəzi tərəfindən insulin istehsalına təsir göstərir. Britaniya alimləri müəyyən ediblər ki, pəhrizin pozulması hipertoniya, qızdırma və istənilən vəziyyətdə pisləşmənin inkişafı üçün təhrikedici amildir. Yemək zamanının bir dəfə pozulması belə sağlamlığa böyük zərər verə bilər və diabet riskini artırır.

Həqiqətən, gec saatda nahardan sonra qan şəkərinin səviyyəsi kəskin şəkildə yüksəlir və bədənin onu sakit rejimdə emal etməyə vaxtı olmur".

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəkikə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.